**KÜRD** xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www.Diplomata-kurdi.com

№ 06 (154), 20-26 fevral, Şûbat - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



## İlham Əliyev Fransanın nəqliyyat nazirini və Fransa Prezidentinin diplomatiya məsələləri üzrə müşavirini qəbul etmişdir



Səh. 16

## Багдад приветствует назначение Нечирвана Барзани премьером

## Türk iş adamlarından Ermənistana "həyat qapısı"

Səh. 3

## DÖYÜNƏN ÜRƏYİMİZ

Səh. 11



Səh. 15

## Женщины на войне: 1 день из жизни курдских боевиков



Səh. 8-9

## Göyçədə bir kənd vardı




Səh. 6

## "Kürdüstan yeni diplomatiya yolunda"



Səh. 16

## Глава МИД находится в республике Корея




Səh. 12

## 'Kurd referanduma Sûriyê boykot dikin'



Səh. 15

## Вчера было задержано около 450 человек




Səh. 16

## Курдский язык стандартизируют



Səh. 4

## "Türkiyə nəhəng həbsxanaya çevrilib"

# İlham Əliyev "Şahdağ" Qış-Yay Turizm Kompleksinin tikintisinin birinci mərhələsi üzrə tamamlama işləri ilə tanış olmuşdur

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şahdağ qış-yay turizm kompleksinin tikintisinin birinci mərhələsi üzrə tamamlama işləri ilə tanış olmuşlar.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev kompleksin tikintisinin gedişi ilə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi. Bildirildi ki, Şahdağ qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənəcəkdir. Kompleksin tikintisinə hazırlıq işlərinə 2006-cı ildən başlanılmışdır. Həmin il keçirilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlmişdir. 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə bu kompleksin təməli qoyulmuşdur.

Diqqətə çatdırıldı ki, Şahdağ qış-yay turizm kompleksi Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Şahdağ qış-yay turizm kompleksinə çəkilən avtomobil yolu genişləndirilir, körpülər salınır, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilir və digər müvafiq işlər görülür. Tikintinin aparıldığı ərazi ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Bu turizm obyekti dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdədir. Turizm kompleksinin əsas hissəsi isə dəniz səviyyəsindən 1440-1640 metr yüksəklikdəki yaylaqda yerləşir. Kompleksin 2058 hektar ərazisi vardır. Azərbaycanda və ümumiyyətlə dünyada ən mükəmməl layihələrdən biri olan Şahdağ qış-yay turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənəcək və il boyu fəaliyyət göstərəcəkdir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açacaqdır. Turistlər yay mövsümündə də burada mənalı istirahət edə biləcəklər.

Qeyd olundu ki, Şahdağ qış-yay turizm kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Kompleksin inşası bir neçə mərhələdə aparılacaqdır. 2011-ci ilin fevralında Prezident İlham Əliyev kompleksin 2 nömrəli kanat yolunun və xizək enişinin açılışında da iştirak etmişdir. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısı ötən ilin sonunda tikintinin gedişi ilə tanış olmuşdur.

Prezident İlham Əliyev kompleksin lift bazasında həyata keçirilən işlərlə maraqlandı. Bildirildi ki, artıq lift bazasında tamamlama işləri görülür. Bu baza kompleksə 2-3 günlük istirahətə gələn turistlər üçün nəzərdə tutulmuşdur. Baza biri yeraltı olmaqla, üç mərtəbədən ibarətdir. Burada xizək avadanlığı kirayəsi bölməsi də vardır.



Dövlət başçısına xizək bölməsində istifadə olunacaq və turistlərin ixtiyarına veriləcək xizək avadanlığı barədə məlumat verildi. Bazada Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, uşaqların dağ-xizək idmanı ilə məşğul olmaları və əylənmələri üçün də hərtərəfli şərait yaradılmışdır.

Azərbaycan Prezidentinə məlumat verildi ki, turistlərin xizək enişinə çatdırılması üçün kanat yolları inşa olunur. 2, 4, 8 və 9 nömrəli liftlərin quraşdırılması başa çatdırılmış, 3 nömrəli liftdə sınaq işi aparılır, 7 nömrəli liftin inşası isə yekunlaşdırılmaq üzrədir. Kompleksdə turistlərin xizəklə sürüşməsi və qış istirahətini sığortalamaq məqsədi ilə süni qaryağdırma sistemi yaradılır. Bunun üçün bütün enişlərdə qar generatorları quraşdırılmışdır. Bazada Almaniya istehsalı olan avadanlıqdan qarın bərkidilməsində və xizək trassının lazımi səviyyəyə gətirilməsində istifadə olunacaqdır. Burada birinci mərhələ çərçivəsində 9 kanat yolu fəaliyyət göstərəcəkdir.

Diqqətə çatdırıldı ki, lift bazasındakı oteldə 40 otaq, restoran, bar, kafe, bilyard otağı, dükanlar, konfrans salonu, tibb məntəqəsi, əməkdaşlar üçün otaqlar, on lift, avtomobil dayanacağı və digər obyektlər vardır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva nümunə üçün yaradılan otel otaqlarında şəraitlə tanış oldular.

Daha sonra yüksəklikdən kompleksin ərazisini seyr edən dövlətimizin başçısına məlumat verildi ki, birinci mərhələ çərçivəsində qaz generator stansiyasının tikintisi, bütün zəruri daxili kommunikasiyalar və xarici infrastruktur üzrə də xeyli iş görülmüşdür. Kompleksə Qusar rayonundan 35,7 kilometr uzunluğunda orta təzyiqli qaz kəməri çəkilmişdir. 35 kilometrlik kanalizasiya sistemi də istifadəyə hazırdır. 29 kilometr uzunluğunda fiber lifli rabitə xəttinin çəkilişi tamamlanmaq üzrədir. 32,6 kilometrlik 110 kilovoltluq elektrik xəttinin inşası davam edir. İçməli su kəmərinin və təmizləyici qurğuların inşası da başa çatdırılmışdır.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə növbəti mərhələdə həyata keçiriləcək infrastruktur işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən Şahdağ qış-yay turizm kompleksinin ərazisində otellər şəbəkəsi yaradılır. Artıq "Resort" otelində tamamlama işləri görülür. Yeddimərtəbəli oteldə turistlərə prezident nömrəsi, VİP-suit otaq, hər biri ikinəfərlik 170 nömrə, müxtəlif tədbirlərin keçirilməsi üçün üç konfrans salonu, altı restoran, SPA mərkəzi, üzgüçülük hovuzu, uşaq bağçası, xizək kirayəsi məntəqəsi, xizək məktəbi, yeraltı dayanacaq xidmət göstərəcək və digər xidmətlər təklif olunacaqdır. "Resort" otelinin yaxınlığında daha iki yüksək səviyyəli otel fəaliyyət göstərəcəkdir. Həmin otellərdən birinin artıq bünövrəsi qoyulmuş, digərinin isə hazırlıq işləri aparılır. Yaxınlıqda ən müasir standartlara cavab verən ticarət mərkəzi də fəaliyyət göstərəcəkdir. Ərazidə bir kiçik otelin inşası da tamamlanmaq üzrədir. Burada turistlər üçün 26 otaq, sağlamlıq klubu, restoran, bar, kafe və digər əyləncə mərkəzləri nəzərdə tutulur. Həmin otelin yaxınlığında elektrik stansiyası tikilir. Qonşuluqdakı digər infrastruktur obyekti isə yay mövsümündə Şahdağ qış-yay turizm kompleksindəki bütün obyektlərin sərin hava ilə təmin olunmasını mərkəzləşdirilmiş qaydada həyata keçirəcəkdir.

Diqqətə çatdırıldı ki, Şahdağ qış-yay turizm Kompleksi dünya turizm sənayesində xüsusi layihələrdən biri olacaqdır.

Layihənin növbəti mərhələləri çərçivəsində yeni kanat yolları salınacaq, qolf meydançası, müxtəlif klublar, kiçik mehmanxanalar, pansionat, Şahdağ Gənclər Mərkəzi, 900 nömrəlik "Relax" mehmanxana şəbəkəsi, 200 nəfərlik diskoteka binası inşa olunacaq, at ferması fəaliyyət göstərəcəkdir.

Qeyd olundu ki, kompleksin birinci mərhələsi üzrə tikinti işləri dövlət tərəfindən maliyyələşdirilir. Tikintiyə nəzarəti Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan Şahdağ qış-yay turizm kompleksinin müdiriyyəti həyata keçirir. Kompleksin inşasının növbəti mərhələlərində özəl sektorun da yaxından iştirakı nəzərdə tutulmuşdur.

Komplekslə yaxından tanış olan Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya əyləncə mərkəzlərinin yerləşəcəyi məhəllə barədə ətraflı məlumat verildi. Dövlət başçısı növbəti mərhələdə həyata keçiriləcək tədbirlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.

# Türk iş adamlarından Ermənistana "həyat qapısı"

## Rəsmi Ankara bu qapını niyə qapatmaq istəmir?

*Cümşüd Nuriyev: "Müxtəlif bəyanatlarla məsuliyyətdən qaçmaq Türkiyə dövlətinə başucalığı gətirmir"*



Xəbər verildiyi kimi, noyabrın 22-də İrəvanda Türkiyə-Ermənistan Biznesinin İnkişafı Şurası və Ermənistan Sənayeçilər və Sahibkarlar İttifaqının birgə təşkilatçılığı ilə biznes forum keçirilib. Forumda Ermənistan və Türkiyə sahibkarları arasında gələcək əməkdaşlığın istiqamətlərini müəyyənləşdirən memorandum imzalanıb.

Azərbaycanın iqtisadi-siyasi maraqları ilə daban-dabana zidd olan və Türkiyənin ölkəmiz qarşısında götürdüyü mənəvi öhdəliyin tələblərini pozan bu olay rəsmi Ankaranı hərəkətə gətirib. Baş verən hadisə ilə əlaqədar açıqlama verən Türkiyənin Xarici İşlər Nazirliyinin mətbuat xidməti bu hadisənin Türkiyə dövləti ilə hər hansı bir şəkildə bağlantısı olmadığını bildirib: "Xaricdən maliyyələşən layihələrin həyata keçirilmə cəhdlərinin Türkiyə dövlətinə heç bir aidiyyəti ola bilməz. Bizim qəti mövqeyimizi bundan ibarətdir ki, qonşu ölkədə hər hansı layihə çərçivəsində iş görməyə çalışanlar, ilk növbədə, Azərbaycanı nəzərə almalı, münasibətlərimizin zədələnməməsi barədə düşünməlidirlər. Türkiyə dövlətinin bütün məsələlərdə torpaqları işğal altında olan Azərbaycanın haqlı mübarizəsini dəstəklədiyi və bu mövqeyindən geri addım atmayacağı hamıya məlumdur".

Rəsmi Ankaranın baş verənlərlə bağlı belə bir mövqe ortaya qoyması nə qədər mütərəqqi olsa da, Türkiyə Xarici İşlər Nazirliyinin problemin həllindən diplomatik şəkildə yayınması həqiqəti Azərbaycanın siyasi-iqtisadi fakir adamlarının etirazına səbəb olub. Məlum bəyanatı Türkiyənin dövlət olaraq məsuliyyəti öz üzərindən atması kimi qiymətləndirənpolitoloq Cümşüd Nuriyev də açıqlamadakı fikirlərin məntiqə zidd olduğunu bildirdi: "Türkiyənin bu məsələdə öz yaxasını kənara çəkməsi doğru deyil. Beynəlxalq iqtisadi hüquqa görə, bir ölkənin qeydiyyatından keçən və orada fəaliyyət göstərən istənilən firma həmin hökumətin qanunlarına tabedir. Bu mənada Türkiyədəki bütün hüquqi şəxslər bu ölkənin qanunlarına tabedirlər. Əgər bu ölkə hər hansı bir dövlətə qarşı iqtisadi sanksiya tətbiq edirsə, həmin ölkənin firmaları da bu iqtisadi sanksiyanın tələblərinə uyğun şəkildə fəaliyyət göstərməlidir. Türkiyə xarici işlər naziri bundan imtina etsə də, iş imtina etməklə bitmir. Əgər hansısa firma Türkiyənin qanunlarını pozursa, o zaman Türkiyə bu şirkətlərin xarici ölkə və firmalarla bağladığı müqaviləni leqalizisiya etməməlidir. Bu müqavilələrin o zaman hüquqi qüvvəsi olur ki, bunlar hansısa üçüncü dövlət tərəfindən leqallaşdırılsın. Çünki Ermənistan və Türkiyə arasında diplomatik münasibət olmadığı üçün bu, üçüncü bir dövlətin vasitəçiliyi ilə leqallaşdırılmalıdır. Bunun üçün isə Türkiyə və Ermənistan dövlətlərinin razılığı olmalıdır. Əgər Türkiyə buna öz razılığını bildirməsə, həmin müqavilələrin hüquqi önəmi olmayacaq. Odur ki, Türkiyə tərəfi bu məsələni gündəmə gətirməli, həmin müqavilələrin əsassız olduğunu ortaya qoymalıdır".

Politoloqun sözlərinə görə, əslində Türkiyə dövlətinin imzalanmış müqavilələri adi kağız parçasına çevirməsi üçün yetərincə üsul və vasitə mövcuddur: "Türkiyədə xarici ticarət dövriyyəsi və ixrac haqqında qanunlar var. Bu qanunlara görə Türkiyə ərazisində istehsal olunan məhsulların başqa bir ölkənin ərazisində satılmasına və ya barəsində sanksiya verilən ölkədə istensal edilən məhsulların Türkiyə ərazisinə gətirilməsinə dövlət çox asanlıqla qadağa qoya bilər. Antidempinq rüsumu deyilən bir rüsum var. Bu rüsum ölkənin daxili bazarında gərginlik yaradacaq, milli istehsalı əngəlləyəcək ucuz məhsulların ölkə ərazisinə gətirilməsinin qarşısının alınmasında istifadə edilir. Yəni gətirilən mallara yüksək rüsum qoyulur. Belə rüsum həmin firmanın məhsullarının satışını çətinləşdirərək bu firmaları müflisləşdirir. Türkiyə bu addımdan da istifadə etməyib".

Politoloq Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlunun da ünvanına sərt ittihamlar səsləndirib: "Ya Davudoğlu bir diplomat ustalığı ilə bu məsələdən qaçır, ya da onun beynəlxalq iqtisadi hüquqdan xəbəri yoxdur. Ola bilməz ki, həmin ölkənin ərazisində fəaliyyət göstərən firmalara bağlı Türkiyə dövləti məsuliyyət daşımasın. Onlar Türkiyə vətəndaşlarıdır. Türkiyə daxilində isə məhz Türkiyə qanunları fəaliyyət göstərir. Ermənistan ərazisində bağlanmış müqavilənin o zaman hüquqi gücü olacaq ki, Türkiyə tərəfi onu tanısın. Müxtəlif bəyanatlarla məsuliyyətdən qaçmaq, Türkiyə dövlətinə ən azı başucalığı gətirmir. Şübhəsiz ki, bu məsələdə ayrı-ayrı adamların marağı var. Lakin Türkiyə iqtisadi sanksiyalarla bunun qarşısını ala bilər".

Politoloq son illər Ermənistanla Türkiyə arasında ticarət dövriyyəsinin az qala fantastik səviyyədə artdığına diqqət çəkdi: "Son illər Ermənistanın xarici ticarət dövriyyəsində Türkiyənin çəkisi getdikcə artır. Bu çox təhlükəli bir prosesdir. Hər gün orta hesabla 8-10 yük maşını Gürcüstan vasitəsilə Ermənistana daxil olur. Ermənistanın tanınmış iqtisadçılarından biri olan Adons bildirir ki, son iki ildə Türkiyənin Ermənistan daxili bazarındakı payı 15-20% artıb. Əvvəl bu göstərici 2-3% miqdarında idi. Əgər iki il ərzində bu faiz 10 dəfə artıbsa, o zaman növbəti iki il ərzində bu rəqəm daha da artacaq. Türkiyə Ermənistanın daxili bazarını nəzarətə götürmək adı ilə hərəkət etsə də, əslində bu ölkədəki bir qrup adam bununla Ermənistanın güclənməsinə nail olur. Bu adamlar erməni əsilli türk iş adamlarından ibarətdir. Hesab edirəm ki, Türkiyə dövləti baş verənlərlə bağlı təcili ölçü götürməlidir. Çünki sonra gec olacaq".

***Seymur Əliyev, hurriyyet.net***

# Türkiyə boyu reydlər həyata keçirilib

Türkiyədən alınan məlumatda polisin ölkənin cənub-şərqində fəaliyyətlərinə qadağa qoyulan kürd üsyançıları ilə əlaqəsi olduğunda şübhəli bilinən birlik liderləri və fəalların axtarışı məqsədi ilə xüsusi reydlər həyata keçirdiyi bildirilir.

Anadolu xəbər agentliyinin yayımladığı məlumatda deyilir ki, ölkənin azı 20 şəhərində, eyni zamanda aparılan reydlər zamanı 100 nəfərdən çox insan nəzarət altına alınıb.

Həbs ediıənlərdən azı 10 nəfərin İstanbulda, bəzilərinin Ankarada və kürdlərin çoxluq təşkil etdiyi Diyarbakırda həbs edildikləri deyilir.



Həbs edilənlər arasında şəhər merlərinin, jurnalistlərin, insan haqları fəallarının da olduğu bildirilir.

## Sətri Xəbərlər

*Türkiyə mətbuatının yazdığına görə, ölkənin baş naziri Ərdoğan MİT məsələsinə görə məhkəməyə çağırılaraq, ifadə verəcək.

*Parisdə "Kürd məsələsinə" dair konfrans keçiriləcək.

*"Nobel" mükafatının laureatı Nelson Mandela: Mənim uşaqlarım Müstəqil Kürdüstanın yaranmasının şahidi olacaqlar.

*Hər gün KCK məsələsinə görə Türkiyədə onlarla insan həbs olunur. Keçən həftə ərzində isə 100-dən artıq adam həbsə atılmışdır.

*Kərkük şəhərinin sakinləri Vanda əziyyət çəkən soydaşlarına təkrarən yardım göndəriblər.

*Suriya Kürdlərinin lideri İbrahim Biro: Kürdlərin iştirakı olmadan Suriyada sabitlik bərqərar olmaz!

*Türkiyədə milliyətcə kürd olan tanınmış yazıçı və rejissor Mızqin Mücid Arslan həbs edilmişdir. Xanım Arslan "terror təşkilatını təbliğ etməkdə" günahlandırılır.

*Türkiyə mətbuatı: MİT kürdlərə (PKK-ya) işləyirdi. MİT Aponun təlimatlarını Partiya mənsublarına ötürürdü.

*Kürdüstan muxtariyyatının hökuməti ölkədə idmanın inkişafı və idman mərkəzlərinin tikilişi üçün büdcədən 17 milyon dollar ayırıb.

*Cənubi Kürdüstanda fəaliyyət göstərən müxalifət partiyaları, Baş Nazirin seçkisini boykot ediblər. Onların sözlərinə görə, bu addım ona görə atılıb ki, hökümət müxalifətin səsini eşitsin.

*Fevralın 26-da Suriyada Konstitusiya referendumu keçiriləcək.Ölkədə islahatların aparılması planlaşdırılır.

*Fevralın 15-də Abdulla Öcalanın həbsinin 13-cü il dönümündə milyonlarla insan etiraz aksiyaları keçirib. Türkiyədə yaşayan kürdlər etiraz olaraq bütün ticarət obyektlərini bağlayıblar, Rusiyada aclıq aksiyaları keçirilib, Avropada Türkiyə səfirlikləri və qəzet nümayəndəliklərinə hücumlar həyata keçirilmişdir.

*Süleymaniyyə şəhərində Kürdüstan Yurdsevərlər Birliyi (KYB) və Kürdüstan Demokrat Partiyası (KDP) mərkəzi komitəsinin üzvlərinin görüşü keçirilmişdir. Görüşdə Kürdüstanın gələcək inkişafı üçün hansı addımların atılacağı haqqında müzakirələr olunmuşdur.

*KYB partiyasının üzvü Kosrat Rəsul Kürdüstan muxtariyyatının vitse-prezidenti təyin olunub.

*Kürdüstanın prezidenti Məsud Barzani Böyük Britaniya nümayəndə heyyətini qəbul etmişdir.

*Türkiyənin daxili işlər naziri Beşir Atalay: Vanda çadırdan düzəldilmiş 290 ev qalıb.

*Kürdüstan Parlamentində keçirilən seçkilərdə Neçirvan Barzani Baş Nazir postuna layiq görülmüşdür. O, 111 səsdən 71-ni qazanmışdı.

*İraq vitse-prezidenti: İstədiyim vaxt İraqı tərk edə bilərəm. Lakin hələlik Kürdüstanda qalmaq daha məqbuldur. Qeyd edək ki, Tarik Əl-Haşimini terrorçuluqda ittiham edirlər.

*Əhməd Türk və Səlahəddin Dəmirtaş Kürdüstanın paytaxtı Həvler şəhərinə səfər etmişlər.

*Kərkük şəhərində Kürdüstan hökumətinin dəstəyi ilə beynəlxalq ticarət sərgisi keçiriləcəkdir.

# “Türkiyə nəhəng həbsxanaya çevrilib”

*Qabil Hüseynli: “Türkiyədə Atatürkçü dünyəvi sistemin demontajı prosesi gedir”*

Türkiyədə tanınmış ordu generalı, Türkiyə Cümhuriyyətinin 26-cı genelkurmay başkanı İlkər Başbuğun həbsi yalnız qardaş ölkədə deyil, bütün dünyada ciddi rezonansa səbəb olub. İ.Başbuğun həbsinə etiraz əlaməti olaraq Türkiyənin müxtəlif şəhərlərində küçələrə çıxan insanlar, rəsmi Ankaradan həbsdə olan generalın azadlığa buraxılmasını, orduya olan təzyiq və basqıların aradan qaldırılmasını tələb edib. Qeyd edək ki, son dövrlər Şimali İraqda həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla yadda qalan İ.Başbuğ bu il yanvarın 5-də dindirilmək üçün gətirildiyi məhkəmədə həbs edilərək birbaşa həbsxanaya göndərilib. Sabiq ordu rəhbəri dövlət çevrilişi həyata keçirmək cəhdində və hakim AKP-ni gözdən salan fəaliyyət aparmaqda günahlandırılır.

İ.Başbuğun həbsi Türkiyənin daxili ictimaiyyəti ilə yanaşı qonşu ölkənin qlobal miqyaslı müttəfiqləri tərəfindən də narahatlıqla qarşılanıb. Amerika Dövlət Departamentinin sözçüsü Viktoriya Nuland Türkiyə hakimiyyətinə İ.Başbuğla bağlı araşdırma və təhqiqat prosesinin şəffaf şəkildə həyata keçirməyi tövsiyyə etdiklərini bildirib.

Türkiyə ordusuna yönəlik basqıların artması Azərbaycan ictimai-siyasi sferasında da açıq narahatlıq və narazılıqla qarşılanıb. Məsələyə münasibət bildirən politoloqların demək olar ki, hamısı baş verən hadisələri hakim AKP-nin Türkiyə ordusunun nüfuzuna zərbə endirmək, onu siyasi hakimiyyətin sıradan alətlərindən birinə çevirmək cəhdi kimi şərh edib.

Politoloq Qabil Hüseynli də, Türkiyədə yaşanan olayları AKP-ordu qarşıdurması kimi dəyərləndirir.

**“Türkiyədə avtoritarizm meydan sulayır”**

İ.Başbuğun həbsi ilə bağlı olayların əsla qəbuledilən olmadığını vurğulayan politoloq “Hürriyyət”ə açıqlamasında baş verənləri Atatürkçü Türkiyənin təməl prinsiplərinə vurulan zərbə kimi dəyərləndirib. Ekspertin bildirdiyinə görə, İ.Başbuğ kimi türk xalqı və dövləti qarşısında böyük xidmətləri olan bir insanın terrorçu damğası ilə həbsi cəfəngiyyatdan başqa bir şey deyil: “Mən baş verənləri son dərəcə mənfi qiymətləndirirəm. Son hadisələr bir daha göstərdi ki, türk ordusunun nüfuzuna zərbə vurmaq və onu cəmiyyətin gözündən salmaq məqsədilə AKP-nin apardığı pozucu fəaliyyət davam edir. Bu gün Türkiyədə Atatürkçü dünyavi sistemin demontajı prosesi gedir. Ərdoğanın məqsədi Atatürkçü dövləti yarımdini dövlətə çevirmək, onu əyni cübbəli, üzü saqqallı insanlar yığınına çevirməkdən ibarətdir. O, buna qismən nail olub. Ərəb dünyasında “türk modeli” kimi ağızdolusu təriflənən Türkiyənin hazırkı hakimiyyət və idarəetmə sistemi artıq “türk modeli” deyil. Bu modelin adı “AKP modeli”dir. AKP Atatürkün inqilablar və müharibələr yolu ilə yaratdığı çağdaş bir modeli yarımdini modellə əvəzləməyə çalışır. Şəxsən mənə görə, keçmiş genelkurmay başkanının, vətəninə və millətinə illər uzunu vicdanla xidmət edən bi insanın terrorçu

> *“AKP Amerikanın yetişdirdiyi bir təşkilatdır”*



damğası ilə həbs edilməsi absurddur”.

Ekspertin fikrincə, proseslərin hazırkı məcrada inkişafı Türkiyənin demokratik dəyərlərdən geri çəkilməsi kimi qiymətləndirilməlidir: “Türkiyədə avtoritarizm meydan sulayır. Ərdoğan ordu sisteminin polislə əvəz edilməsi ilə məşğuldur. Təsəvvür edin ki, bu gün polis ağır silahlar, hətta artilleriya ilə silahlandırılır. Polisə çox böyük səlahiyyətlər verilib. Bu səlahiyyətlərə polisin hərbçiləri həbs etmək yetkisi də daxildir”.

**“Ərdoğanın nüfuzu yox dərəcəsindədir”**

Politoloqun sözlərinə görə, bütün güc orqanları üzərində nəzarəti ələ alan Ərdoğan, son müqavimət ocağı sayılan ordunu da özünə tabe etdirməklə tam olaraq söz sahibi olmağa çalışır: “Hüquq-mühafizə orqanları – məhkəmə, prokurorluq, pois və s. sistemlərin hamısı AKP və Ərdoğanın nəzarəti altına keçib. Müstəqilliyini qoruyan yeganə qurum ordu idi ki, o da hazırda ciddi zərbə altındadır. Jandarma komandanını gətirib baş qərargah rəisi qoydular ki, bu insanı Türkiyə ordusuna rəhbərlik etmək qüdrətinə malik bir şəxs kimi qavramaq o qədər də asan deyil”.

Ekspert Ərdoğanın gələcəyə yönəlik arzu və istəklərinə də aydınlıq gətirdi. Baş nazirin özünü prezident kimi görmək arzusunda olduğunu bildirən ekspert, Ərdoğanın xalq içərisindəki nüfuzunun sürətlə aşağı düşməsinə də diqqət çəkdi: “Ərdoğan prezident olmaq istəyir. O, ölkədəki bütün strukturların səlahiyyətini öz əlində cəmləşdirməyə çalışır. Bu isə avtoritarizmə aparan bir yoldur. Artıq Türkiyədə avtoritarizm, AKP və Ərdoğanın avtoritarizmi formalaşır. Ərdoğanın şəxsiyyətinə pərəstiş elementlərinin formalaşdırılması prosesi davam edir. Bu isə o deməkdir ki, Türkiyədə demokratiyaya zidd proseslər gedir və bu proseslər Türkiyəyə yaxşı heç nə vəd etmir. Türkiyə bu gün bütün qonşuları ilə münasibətləri korlayıb. Avropa Birliyinə gedən yolu demək olar ki, qapayıb. Əhali arasında da Ərdoğanın nüfuzu aşağıdır. Ola bilsin ki, Ərdoğanın saqqallı və cübbəli insanlar arasında reytinqi olsun. Ancaq məsələ budur ki, onun Türkiyəni yaradan və onu bu hala gətirən, yəni Türkiyəni Türkiyə edən insanlar arasında nüfuzu yox dərəcəsindədir”.

**“Ərdoğan ordunun nüvəsini dağıdıb”**

Türkiyədə 174 nəfər general və admiral həbs edildiyini bildirən Q.Hüseynli, bunun türk ordusu və Türkiyə dövlətinin mənafeyi baxımından acınacaqlı bir rəqəm olduğunu vurğuladı. Ekspertin fikrincə, aparılan həbslər türk ordusunun nüvəsini dağıdıb ki, bu da onu yetərincə zəif salıb: “Bir sözlə, Türkiyədə baş verən həbslər hiddət doğuran hadisələrdir. Ölkə az qala nəhəng bir həbsxanaya çevrilib. Türkiyədə bu vaxta qədər 174 nəfər general və admiral həbs edilib. Bu, türk ordusunun əsaslarını tamamilə darmadağın etmək deməkdir. Bu, o ordudur ki, onunla Suriyaya hədə-qorxu gəlir, PKK-nı şantaj edirsən. İndi nüvəsi dağıdılmış bir ordu ilə nə edəsən? Keçmiş baş qərargah rəisləri, ordu komandanları istefa verib. Ola bilsin ki, yaxın günlərdə orduda yeni istefalar gündəmə gəlsin. Türkiyənin müxtəlif kamplara bölünməsi və bu düşərgələr arasında ziddiyyətlərin yaradılması Ərdoğan və AKP-nin yaratdığı ideoloji bazanın nəticəsində həyata keçirilir”.

Politoloqun bildirdiyinə görə, AKP-nin ordu üzərindəki həbslərinə heç nə ilə bəraət qazandırmaq olmaz və Azərbaycanın bu hadisələrdən öz üzüntüsünü ifadə etməsi tamamilə təbiidir: “Mən türk xalqı və dövlətini özümüzə qardaş xalq və dövlət hesab edirəm. Orada baş verən prosesləri ürək ağrısı ilə izləyirəm. Məcburam ki, hakimiyyətdə olan AKP partiyasının yeritdiyi

> *“Ərdoğanın məqsədi Atatürkçü dövləti yarımdini dövlətə və əyni cübbəli, üzü saqqallı insanlar yığınına çevirməkdən ibarətdir”*

siyasəti tənqid edəm”.

**“Amerikanın reaksiyası gecikdi”**

Politoloq Amerikanın İ.Başbuğun həbsi ilə bağlı ifadə etdiyi narahatlığa da münasibət bildirdi. Əslində Birləşmiş Ştatların təhlükəli tendensiyanı ilk gündən hiss etdiyini vurğulayan ekspert rəsmi Vaşinqtonun hazırkı mövqeyinin gecikmiş reaksiyadan başqa bir şey olmadığını vurğuladı: “Amerika bu prosesləri çoxdan görüb. AKP Amerikanın yetişdirdiyi bir təşkilatdır. Ordu Atatürkçü düşüncə tərzinin, dindən və irticadan uzaq olan dünyəvi bir sistemin müdafiəçisidir. Ona görə də Amerika bu gün türk ordusu və onun rəhbərlərini müdafiə etməyə hesablanmış sözlər söyləməyə məcburdur. Amma sirr deyil ki, Amerikanın bu reaksiyası gecikmiş reaksiyadır və odur ki, proseslərə ciddi təsir göstərməyəcək”.

***Seymur Əliyev, hürriyyət.net***

# Türkiyə aviasiyası kürd yaraqlılarının İraq ərazisindəki düşərgələrinə zərbə endirib



Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) təyyarələri bazar günü Kürd Fəhlə Partiyasının (KFP) yaraqlılarının İraqın Şimalında yerləşən düşərgələrinə zərbələr endirib. Gün.Az İnterfaks-a istinadən xəbər verir ki, bu barədə türk ordusunun nümayəndəsi məlumat verib. “Təyyarələrimiz missiyalarını uğurla başa çatdırıb və geriyə, bazaya qayıdıblar” – deyə, o bildirib. Hərbçi qeyd edib ki, zərbələr yaraqlıların “mağara və sığınacaqlarına” endirilib.

# İRANDA KÜRD ÜSYANI

*İranın Xuzistan vilayətində iğtişaşlar baş verib, 3 nəfər ölüb, 49 nəfər həbs olunub*

İranınXuzistanvilayətində iğtişaşlarbaş verib. APA-nın İRANA-ya istinadən məlumatına görə, nəticədə 3 nəfər öldürülüb, 49 nəfər həbs edilib. Həbs olunanlar arasında İran İslam İnqilabı Keşikçilər Korpusunun (“Sepah”) bir keçmiş zabiti də var. Ölənlərin hər üçünün zindandakı işgəncələr nəticəsində həlak olduğu bildirilir. Hadisədən sonra Xuzistan vilayətinin bir sıra şəhərlərində komendant saatı elan edilib. Qeyd edək ki, iğtişaşlara bir qrup gəncin bu ilin martında keçiriləcək parlament seçkilərini boykot etməklə bağlı təbliğat aparması səbəb olub. Belə ki, onlar əhalini parlament seçkilərini boykot etməyə çağırıb. Bu cəhd polislə xalq arasında toqquşmaya səbəb olub. Toqquşmalar Xuzistanın Şuş şəhərindən başlayıb. Bir qrup gənc seçkiləri boykot etməklə bağlı şəhərin divarlarına elanlar yapışdırıb. Polis bu məsələni bəhanə edərək milli fəalların evlərinə hücum edib və onlardan bir neçəsini saxlayıb. Şəhər əhalisi bu hadisələrə etiraz edərək polislə toqquşub. Daha sonra iğtişaşlar Həmidiyyə şəhərinə




keçib və polis bu şəhərdə də bəzi milli fəalları həbs edib. Həmidiyyə şəhərinin bir sıra məktəblərinin direktorları da həbs edilənlər arasındadır. Artıq məsələ ilə bağlı bir sıra beynəlxalq təşkilatlar bəyanat veriblər.

# Xocalı müsibəti. Xocalı dərdi. Xocalı faciəsi...



**İllər keçdikcə zaman-zaman bizi göynədəcək bu facia xalqımızın yaddaşından heç zaman silinməyəcək. Başları kəsilmiş körpələrin fəryadı, bu xalq yaşadıqca heç bir vaxt yaddan çıxmayacaq. Əksinə Azərbaycan xalqına daha dözümlü olmağa, tarixini unutmamağa, erməni vəhşiliklərinə, erməni şovinizminə qarşı daha mətin mübarizə aparmağa səbəb olacaqdır.**

Xocalı faciəsi nə Hələpcədir, nə Xatındır, nə Sonqimidir. Xocalı faciəsi XX əsrdə törədilmiş ən dəhşətli faciədir. Xocalı faciəsi daha ağır, daha dözülməz olmuşdur.

26 fevral 1992-ci il tarixi yaşadıqca bu ağrı heç zaman bu xalqın yaddaşından silinməyəcək. Bu qanlı faciə nəticəsində 623 nəfər həlak olmuş, 8 ailə tamamilə yer üzündən silinmiş, 25 uşaq hər iki valideyinini itirmiş, 230 uşaq isə valideyinlərindən birini itirmişdir.

487 nəfər yaralanmışdır. Onlardan 76 nəfəri uşaqır. 1275 nəfər əsir götürülmüş, 250 nəfər isə itkin düşmüşdür. 01.04.1992-ci il tarixinə olan məlumata görə Xocalıya 5 milyard manat məbləğində ziyan dəymişdir.

Bəs kimdir günahkar? Əslində Xocalı faciəsi bir neçə ay əvvəldən o dövrkü səriştəsiz hakimiyyət strukturlarının işbilməzliyi ucbatından başlamışdı. Çünki başları kreslo, pul, vardövlət yığmağa qarışmış, Xocalı yad-



dan çıxmışdı. Heç kəs mühasirədə olan Xocalını, olacaq faciələri başa düşmək, Xocalıların dərdinə şərik çıxmaq, baş verə biləcək təhlükələrin qarşısını almaq istəmirdi. 1991-ci ilin oktyabrından blokadada olan Xocalının quru əlaqəsinin bərpasına çalışmaq əvəzinə, Bakıda oturub hakimiyyət davası ilə məşğul idilər. Xocalıya verilən elektrik enerjisinin 1992-ci il yanvarın 2-dən kəsildiyini, yanvarın 28-də isə sonuncu vertalyotun ora getdiyini bilsələr də, heç bir tədbir görülməmişdi.

Şəhərdə qalanlar əsasən qocalar, uşaqlar, qız-gəlinlər, yerli özünü müdafiə dəstələri, Milli Ordunun bir qisim döyüşçülərindən ibarət olmuşdur.

Fevralın ikinci yarısından başlayaraq şəhər aramsız olaraq erməni silahlı dəstələri tərəfindən, toplardan iri çaplı pulemyotlardan, minaatanlardan, avtomatlardan atəşə tutulmağa başlamışdı.

Bəs yaşanmış bu faciələrin günahkarları kimlər idi? Əslində günahkarları kənarda axtarmaq mənasızdır. Əsl günahkar ermənilər deyil, o dövrki səlahiyyətli dövlət nümayəndələri idi. Vaxtında tədbir görülsə idi. Nə xocalı faciəsi yaşanardı nə də digər rayonlar işğal olunardı. Hətta o dövrki hakimiyyət bu faciəni xalqdan gizlətməkdən belə çəkinməmişdilər.

Nə yaxşı ki, Cingiz Mustafayev, onun kimi qeyrətli oğullar var idı. Öz həyatlarını təhlükəyə ataraq bu dəhşətli faciəni, ermənilərin əli ilə 366-cı motoatıcı polk tərəfindən törədilən bu vəhşilikləri bütün dünyaya çatdıran bu şəxslərə allah rəhmət etsin, qəbirləri nurla dolsun ki, bu qanlı tarixi erməni vəhşiliklərini olduğu kimi bütün bəşər övladlarına çatdırmışlar.

O dövrkü hadisələri öz gözləri ilə görən xarici jurnalistlər, belə bir faciənin tarixdə olmadığını bildirərək belə yazırdılar:

*"Krua Eveneman" jurnalı (Paris)*

25 yanvar 1992-ci il-Ermənilər Xocalıya hücum etmişlər.

Bütün dünya eybəcər hala salınmış meyidlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə məlumat verirlər.

*"Sandi Tayms" qəzeti (London).*

1 mart 1992-ci il-Erməni əskərləri minlərlə ailəni məhv etmişlər.

*"Faynenşl Tayms" qəzeti (London)*

9 mart 1992-ci il-Ermənilər Ağdama tərəf gedən dinc əhalini güllələmişlər. Azərbaycanlılar 200 nəfərə qədər cəsəd saymışlar.

*"Tayms" qəzeti (London)*

4 mart 1992-ci il-çoxları eybəcər



hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır.

*"İzvestiya" (Moskva)*

4 mart 1992-ci il-Videokamera qulaqları kəsilmiş uşaqları göstərir. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları-baş dərisi soyulmuşdur, ermənilər vaxt itirməmək üçün barmaqdan üzüyü barmaqla, qulaqdan sırğanı qulaqla birlikdə kəsmişlər.

Bütün bunlar Xocalı faciəsinin necə də ağır bir faciə olmasından, xalqımızın başına gətirilən müsibətlərdən, erməni qəddarlığından, erməni vəhşiliklərindən xəbər verir.

Xocalı bizim qan yaddaşımızdır. Xocalı bizim sağalmaz yaramız, uşaqlarımızın göz yaşları, qadınlarımızın, ana və bacılarımızın ah-naləsi, fəryadıdır... Xocalı bizim qanla yuyula biləcək bir ləkəmizdir!

Xocalı faciəsi elə bir ağır yükdür ki, tarix yaşadıqca bu yükün ağırlığını hiss edəcəyik.

Xocalı faciəsi tariximizin qanlı səhifəsidir. Bunu heç vaxt unutmaq olmaz.

Ey ulu tanrı, Azərbaycan xalqına Xocalı kimi faciə bir daha qismət etmə, ulu tanrı heç bir xalqın taleyinə belə bir qanlı səhifəni yazmasın. Başları kəsilmiş, gözləri çıxarılmış, namusuna təcavüz edilmiş qadınların göz yaşları, ah naləsi bizi hər an döyüşə səsləyir.

***Səhifəni hazırladı: Hamlet SƏRDAR***




## SOYQIRIMI OLDU XOCALIMIZDA

Yirmi altı fevral, dəhşətli o gün,
Soyqırımı oldu Xocalımızda.
O gün ürəklərdə qaldı bir düyün,
Qırıldı oğlanlar, məhf oldu qız da.

"Üç yüz altmış altı" vəhşi o alay,
Səpdi Xocalıya mərmilərini.
Mixail Qarbaçov, tayqulağa tay,
Raisa kısqırdı nadan ərini.

Dünya tarixində belə soyqırım,
Olmamış heç zaman bu vəhşilikdə.
Açıldı neçə min sinədə şırım,
Vəhşilik edildi cüt, ikilikdə.

Kömək eyləməsə sarıqulaqlar,
Erməni kim idi soyqırım edə?
Bizim nökərimiz, tənbəl ulaqlar,
Gücü çata bilməz heç vaxt, heç vədə.

Hayıfı almasaq, ruhlar inciyər,
Gələn nəsillər də qınayar bizi.
Qəhrəman igidlər, deyil ağciyər,
Göstərər "yan" lara kimliyimizi.

Kimlər eylədilər, yaxşı bilinir,
İndi köklənməli qeyrətlərimiz.
Gecikdikcə yaddaşlardan silinir,
Birləşib, bir yumruq olmalıyıq biz.

Yumruğumuz Koroğlunun yumruğu,
Babək qılıncını götürməliyik!
Baş Komandan buyurmalı buyruğu,
Dığanı Ketidən ötürməliyik!

Alaq Xankəndini, Pənahabadı,
Sonradan Şuşaya dönən şəhəri.
Qovaq erməni, yaşayan yadı,
Minək Qırat kimi olan kəhəri.

Günahsız Xocalı ahı, naləsi,
Gərək ki, qalmasın yerin üzündə.
Yayılsın dünyaya xalqımın səsi,
Məhv edək düşməni Cıdır düzündə

Biz almasaq Qarabağı, inciyər,
Nəbinin, Həcərin qəhrəman ruhu.
Cihad elan edib, birləşsək əgər,
Qırılar erməni, sevinər ahu.

Neçə min günahsız şəhidlərimin,
Qisasını mütləq almalıyıq biz.
Artsın ürəklərdə gündə nifrət, kin,
Tezliklə qələbə çalmalıyıq biz.

22.02.2007

# “Kürdüstan yeni diplomatiya yolunda”




**Xoşavi Babakr,**
**“Həvler Post”, “kurdistan.ru”**

Müasir zamanda biz kürd diplomatiyasının parlaq uğurlarının dövrünü yaşayırıq. Yaxın keçmişdə isə kürd xalqına qarşı siyasət yalnız gizli siyasi təxribatlardan ibarət olmuşdur, kürd xalqının siyasətinə ciddi yanaşmamışdılar. Heç bir dövlət kürdlərlə açıq danışıqlara getmirdi. Onlara heç bir siyasi təminat vermirdilər və asanlıqla, heç bir izahatı olmadan əldə olunmuş müqavilələri pozurdular. İndi isə dünyanın aparıcı dövlətləri, o cümlədən Türkiyə, ABŞ, Avropa dövlətləri bütün sahələrdə kürd hakimiyyəti ilə danışıqlar aparırlar. Kürdüstan muxtariyyatının və onun liderlərinin dünyada özlərinə məxsus nüfuzları var. Bu görkəmli siyasətçilərdən biri də Neçirvan Barzanidir. Neçirvan Barzani apardığı siyasətə görə Vaşinqton və Ceferson universitetlərinin fəxri doktoru adına layiq görülmüşdür. Öz növbəsində, bu şəraitdə kürd diplomatiyasının qarşısında duran məsələlər də dəyişir. Əgər əvvəl bu məsələlər yalnız üsyan hərəkatına kömәkdən ibarət idisə, artıq müasir zamanda kürd xalqı geniş dövlət məsələlərini həll etmək üçün fəaliyyət göstərirlər. Sonuncu məsələlərin çözmü üçün dünya görüş, bacarıq və təşkilatçılıq vacibdir. Təəssüf ki, biz hələ bu münasibətlərdə tam uğur qazanmamışıq və problemləri çözmək üçün işlərimizi daha da genişləndirməliyik.




Birinci məsələ, bizim nümayəndəliklərimizin rəsmi statusundan asılıdır. Konstitusiya (İraq konst. – A.S.) bizə imkan verir ki, istədiyimiz yerdə öz diplomatik nümayəndəliklərimizi açaq, lakin hökumət faktiki olaraq bu məsələlərdə hüquqlarımızı təsdiqləmədi. Hökumətin nəzəri nöqtəsi ondan ibarətdir ki, bizim xaricdə olan nümayəndəliyimiz yalnız hansısa siyasi partiyanın nümayəndəliyidir. Əlbəttə, bizə məlumdur ki, Bağdadda bəzi güclər konstitusiyanın “mərkəzi hökümət və regionların hüquqi vəziyyətləri” olan yerlərini yalnız adi kağız parçası hesab edirlər. Təəccüblüdür ki, biz bu məsələlərdə neft və digər gəlir bəndləri haqqında müzakirə və mübahisə etmədik və bu məsələlər parlamentin müzakirəsinə çıxarılmadı. Neft və digər gəlir mənbəələri sözsüz ki böyük gəlir gətirir və bu məsələlərdə diplomatik nümayəndəliklər elə də vacib görünmür. Lakin bu ilkin təsuratdır. Diplomatik xidmət heç də ordudan geri qalmır. Xüsusən də sülh zamanı diplomatiya dövlət maraqlarını ordudan daha yaxşı müdafiə edir. Xarici ölkələrdə Xarici İşlər nazirliklərində qeydiyyatdan keçmiş, diplomatik pasporta malik, diplomatik heyətə daxil olanlar bizim faktiki olduğumuz şəxsi adamlardan qat-qat fərqlənir. Bəli, biz olduğumuz ölkələrdə formal-hüquqi nöqteyi nəzərdən şəxsi adamlarıq. Oxucu özü də Kürdüstanın dünyada maraqlarını qorumaq üçün bu işlərdə hansı statusa malik olmağımızı qiymətləndirir. Diplomatik statusa malik olmadan isə göndərilən ölkədəd kürdüstan nümayəndəsi sadəcə heç bir hüquqa malik deyil və öz hökuməti tərəfindən göndərilən yox, yerli dövlət onu nə cür tanımasıdır.



Bu arada biz diplomatik işinin hərtərəfli standartlarına tezliklə yaxınlaşmalıyıq. Nümayəndəliklərimizin işlərini səfirlik strukturalarına uyğunlaşdırmalıyıq. Məsələn, öz attaşemiz və müxtəlif istiqamətlər üzrə katiblər olmalıdır.

Unutmaq lazım deyil ki, əksər ölkələrdə büdcənin əsas xərclərindən biri də xaricdə olan diplomatik sahədir. Diplomatlar cəmiyyətin ziyalılarıdılar və xüsusi təhsil mərkəzlərində təhsil alırlar. Kürdüstan üçün dünya səviyyəli diplomatlar yetişdirmək üçün belə bir xüsusi diplomatik məktəbin yaradılması labüddür.

Diplomatiyanın analitik məlumatlarla təmin edilməsi də vacib məsələlərdən birirdir. Bütün ölkələrdə XİN üçün məsləhətçi analitik məlumat verən institutlar mövcuddur. Deyirlər ki, Kürdüstanda belə bir şey var, lakin praktiki olaraq bunlar nəzərə çarpmır. Mühakimə etməyəcəyəm ki, kim bu məsələlərdə günahkardır – onların özləri, onlara yaxşı diqqət yetirməyən şəxslər, yoxsa maliyyənin az olması. Lakin bu fakt mənfidir və buna son qoymaq lazımdır. Bizim XİN-də mütləq öz analitik xidməti olmalıdır. Xüsusəndə diplomatik işlərdə iqtisadiyyatı bilən savadlı kadrlara yer vermək lazımdır. Müasir siyasətin əsası məhs öz xalqının iqtisadi maraqlarının təmin edilməsidir. İqtisadiyyata, energetikaya və nəqliyyata aid olan mütəxəsislər kürd xalqı üçün daha vacibdir. Bu sahələr xalqımızın həyatında və durumunda əvəzedilməz rol oynayır.

Diplomatların əsas sahələrindən biri də mədəni-maarif işlərin aparılmasıdır. Fransanın və bəzi digər dövlətlərin diplomatiyasının əsas məqsədi mədəniyyətlərini aktiv təbliğ etməkdir. Bu çalışmalarda kürdlərə xüsusi diqqət ayrılmalıdır: müxtəlif festival, simpozium, gecələr və s. olunmalıdır. Bu işlər Kürdüstanın və kürdlərin reklamı olacaq, imicinə müsbət təsir göstərəcək. Düzdür, bu məsələlərdə böyük maliyyə lazım olacaq. Lakin bunları həyata keçirmək üçün Ərbilə ondan daha maraqlı olan yerli kürd diasporaları kömək edə biləcək. Burada isə kürd diasporaları ilə aparılan siyasəti qeyd etmək lazımdır.

Kürd diasporası nəhəngdir, onun potensialı çox böyükdür. Kürdüstan diasporaların gücündən yararlansa, ən azından öz qüvvəsini ikiqat, hətta deyərdim ki, onqat artıra bilər. Təssüf ki, bu sahədə də az iş görülür. Bu istiqamətdə bizə nümunə olacaq – yahudilər, ermənilər, nəhayət PKK var.

Əgər biz PKK-ın tətbiq etdiyi üsulları, idealogiyasını fikirləşməsək, yalnız onun təşkilatçılıq formalarını müzakirə etsək, qəbul etməliyik ki, onlarda bu işlər çox uğurlu alınıb. Bizim fikrimizcə, indiki zamanda Kürdüstan Muxtariyyatı regional yox, ümumkürd, ümumxalq səviyyəsinə çatmalıdır. Diplomatik xidmətdən yararlanaraq, kürd diasporaları arasında geniş təbliğat və təşkilatçılıq işləri aparmaq lazımdır.

Bu məsələlərin davamı olaraq Ərbildə bütün kürd təşkilatlarının yığıncağını təşkil etmək olar. Bu qurumlar isə öz növbəsində Ümumdünya Kürd Federasiyasını yaratmaqla öz qüvvələrini birləşdirəcəklər. Ümumdünya Yahudi Konqresi bunun timsalı ola bilər. Belə bir təşkilat Kürdüstanla yanaşı ikinci “torpaqsız” kürd dövləti ola bilər. Bir-birini tamamlayan bu iki dövlət kürd xalqının maraqlarını daha da geniş əks etdirərdi.

Biz öz fəaliyyətimizə üsyan hərəkatının qeyrirəsmi nümayəndələri kimi başlamışıq. Sonra isə heç kimin tanımadığı, hansı statusa malik olduğu bilinməyən qurumu təmsil edirdik. Bu kürd diplomatiyasının qəhrəmancasına yaranışının vaxtları idi. Artıq biz köhnə stereotiplərdən imtina edərək, yeni, müasir, güclü dövlət diplomatik xidmətini yaratmalıyıq. Əgər biz bunları etməsək, bizim əvəzimizə heç kəs etməyəcək. Çünki, heç bir dövlət onun ərazisində olan güclü kürd nümayəndəliyində maraqlı deyil. Əksinə, çoxları istəyirlər ki, kürd nümayəndəlikləri zəif və qeyri işgüzar olsun.

www.nefewe.com

# ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

**Əvvəli ötən sayımızda**

Maraqlı burasıdır ki, dövrün bir sıra saray tarixçilərinin əsərlərində hər iki qonşu dövlətin cinayətlərinə, qarət və basqınlarına məruz qalan kürdlər yolkəsən, qarətçi və oğru kimi qeyd edilir (113, 430). Şəms Təbrizi isə belə yazır:

دزد دیدم کوکند دزدی ولی
دزد ما را بین که او دزدید کرد

*(Tərcüməsi: Kürd görmüşdüm oğru, ancaq Sən bizdəki oğruya bax, O, kürdü də oğurladı).*

İstər Osmanlı, istərsə də Səfəvilər dövlətinin kürd xalqına münasibəti elə bir qaba şəkil almışdı ki, Sultan hökuməti Osmanlı-İran sərhədlərini qorumağa məmur etdiyi tayfa başçısına Şah ləqəbi, Səfəvi şahları isə eyni vəzifəni icra edən kürd tayfa başçısına Sultan ləqəbi verməklə, bir-birini lağa qoyurdular. Onların fikrinə görə guya kürd nə şah və nə də sultan ola bilməzmiş. Halbuki tarix özü kürd xalqının sıralarından çıxan böyük simaların şahididir. Nəhayət, İran və Osmanlı dövlətlərinin kürd xalqına münasibətləri eyni tərzdə həyata keçirildi.

Həmin siyasət sonralar da davam edirdi. II Şah İsmayıl (1576-1578) və Şah Sultan Məhəmməd (1578-1587) zamanında Qızılbaş sərkərdələri arasınlakı ziddiyyət şiddətləndi və ölkənin xırda feodallıqlara parçalanması təhlükəsi artdı. Bu vəziyyətdən kürd tayfa başçıları da istifadə etdi. Onlardan bəziləri müstəqillik uğrunda mübarizə edir, bəziləri də Osmanlı hökumətinə tabe olurdular.

Bidlisi yazır: «Şah Sultan Məhəmməd zamanında Səfəvilərin hakimiyyəti zəiflədi, 1583-cü ildə Kürdüstan, Luristan və Ərdəlan əyalətlərinin başqa əmirləri kimi, Mokri tayfasının başçısı Əmirə bəy də III Sultan Murada tabe oldu» (76, 291). Bu zaman Azərbyacanın bir sıra rayonları Osmanlı ordusu tərəfindən işğal edilmişdir.

Dövrün tarixçilərindən İskəndər Münişinin fikrinə görə, III Sultan Murad Azərbaycan üzərinə kürd tayfa başçılarının təhriki ilə hücum etmişdir. Müəllif yazır: «Bəzi fitnəkar kürdlər, o cümlədən Qazi Qran, Şahqulu Bulbulan və başqaları torpaq sahiblərinə xas olan bir adətlə zaman və məkan şəraitindən istifadə edirdilər» (47, 231). Lakin bizim fikrimizə görə III Sültan Muradın Azərbyacan üzərinə hücumu da əvvəlki müharibələr kimi hər iki dövlət arasındakı rəqabətin nəticəsi olaraq baş vermişdir. Qeyd etmək lazımdır ki, həmin müharibədə kürdlərin tam əksəriyyəti osmanlılar tərəfində Səfəvilər əleyhinə müharibə edirdilər. Buna görə də 1585-ci ildə Təbrizin Səidabad qəsəbəsində və Şirvan mahalının Çıldır vuruşmasında çoxlu kürd öldürülmüşdür.

I Şah Abbas Səfəvinin (1587-1628) hakimiyyəti zamanı kürdlər haqqında əvvəlki siyasət başqa bir tərzdə davam edirdi. O, bir tərəfdən 15 min kürd ailəsini Xorasan sərhədlərinə köçürtməklə öz ərazisini özbəklərin basqınlarından qorudu, digər tərəfdən isə kürd tayfa başçıları ilə qohumluq33 əlaqəsi yaradaraq Osmanlı təcavüzü qarşısında onları müdafiə edirdi. Çünki kürd tayfalarının «ədalətli» şah və yaxud sultan axtardıqlarını, həm Səfəvi şahları və həm də Osmanlı sultanları yaxşı başa düşürdülər. Buna görə də onlar bəzi hallarda kürd tayfa başçılarını öz tərəflərinə cəlb etməklə, kürdlər üzərindəki təzyiqlərini daha da artırırdılar.

Beləliklə, iki qonşu dövlətin təzyiqinə məruz qalan kürd xalqı XVI əsr boyu davam edən Osmanlı-İran müharibələrindən hədsiz zərər çəkmiş və çoxlu itki vermişdir. Həmin müharibələr Azərbaycan xalqı üçün də fəlakətli olmuşdur. Azərbyacanın bir sıra vilayətləri Osmanlı basqınlarına məruz qaldığı üçün bərbad hala düşmüşdür. Bidlisi göstərir ki: «Şah Sultan Məhəmməd zamanında Dünbili əmiri Sultan Əli tayfaya başçılıq edirdi, lakin müharibələr nəticəsində xaraba qalan bu yerlərdən (Xoy mahalından – Ş.M.) heç bir vergi toplamaq mümkün olmurdu. Naxçıvan mahalındakı Əlkəs dərəsi və Şərur rayonlarının gəlirindən Sultan Əliyə yardım edilirdi» (76, 315).

Osmanlıların Azərbaycan üzərinə basqını zamanı hədsiz cinayətlər törədilmişdir. Belə ki, III Sultan Murad zamanında 15 min nəfər Təbriz əhalisi bir gündə məhv edilmişdi (78, 276). Həmin işğal dövründə Azərbaycanın bir sıra şəhər və kəndləri osmanlılar tərəfindən idarə olunurdu. Onlar bu vilayətlərdən ağır vergilər tələb edirdilər. Bidlisi qeyd edir ki: «Marağa kəndlərinin osmanlılar tərəfindən qarət edilməsi və əhalinin başqa yerə köçməsi nəticəsində hər il 15 xalvar qızıl əvəzinə bir xalvar qızıl toplanırdı» (76, 294).

Beləliklə, uzun zaman davam edən Osmanlı-İran müharibələri kürd xalqı kimi, Azərbaycan xalqının da iqtisadi inkişafını pozur və maddi həyat şəraitini ağırlaşdırdı. Şübhəsiz ki, həmin dövrdə kürdlərin həyatı daha dözülməz olmuşdur.

Bütün bu qeyd etdiyimiz tarixi və siyasi hadisələrlə yanaşı Səfəvilərə tabe olan kürdlərin vəziyyəti osmanlı tabeliyindəki kürdlərə nisbətən demək olar ki, o qədər də ağır deyildi. Bunun səbəbi Səfəvi şahlarının kürd əmirləri ilə qohumluq əlaqəsi yaratmaları idi. Məsələn, Hüsnkif əmiri Məlik Xəlilin qadını I Şah İsmayıl Səfəvinin bacısı, I Şah Təhmasibin bir qadını kürd əmirzadələrindən, I Şah Abbas Səfəvinin bacısı isə Zərrin Külah Ərdəlan hökmdarı Xan Əhmədin qadını idi (114, 100-101). Bu əlaqə kürd xalqı ilə Azərbaycan xalqı arasındakı dostluq və əməkdaşlıq işinə az-çox müsbət təsir edirdi.

Mənbələrdəki məlumata görə Səfəvi şahları bəzi hallarda kürd əmirlərinə Azərbaycan ərazisindən əmirlik ayırıb verir və onlardan İranın əyalət və vilayətlərini idarə etmək üçün hökmdarlar təyin edirdilər (76, 440-450). Şübhəsiz ki, belə bir vəziyyəti osmanlı tabeliyində olan kürd əmirləri haqqında nə görmək və nə də söyləmək olar.

**OSMANLI DÖVLƏTİNİN KÜRD XALQINA MÜNASİBƏTİ**

XVI əsrin əvvəllərində Kiçik Asiyada tam hökmdarlıq edən Osmanlı sülaləsinin səkkizinci nümayəndəsi II Sultan Bayəzid öz sələflərinin böyük imperiya yaratmaq haqqındakı siyasətini davam etdirirdi. Sultan hökumətinin başçılıq etdiyi hakimiyyətin iqtisadi əsasını feodal istismarına məruz qalan oturaq kəndlilər və şəhər zəhmətkeşləri təşkil edirdi. Onun ictimai əsasını isə həmin istismara arxalanan böyük torpaq sahibləri: hərbçi-feodal əyanları, ruhanilərin yuxarı təbəqəsi və zadəganlar təşkil edirdilər. Osmanlı dövlətinin hərbi istinad nöqtəsini köçəri həyat sürən zəhmətkeşlərdən başqa, hərbi xidmətə zorla cəlb edilən türk vətəndaşları, əsarət altına alınmış vilayətlərin əhalisi təşkil edirdi.

Sultan ölkəni idarə etməkdə qeyri-məhdud hüquqa malik idi. O, əyalət və vilayətləri idarə etmək üçün iri torpaq sahiblərindən ibarət hakimlər təyin edir və onlara paşalıq ləqəbi verirdi. Sultan sarayında baş nazirlik (vəzir əzəmlik) ən böyük vəzifə sayılırdı. Beləliklə, sultan hökumətinin apardığı bütün müharibələrdə onun nazirləri və paşaları da iştirak edirdilər.

Qeyri-məhdud hakimiyyət hüququna malik olan türk sultanları çox qəddar və amansız siyasət apararaq istədiyi vaxt hətta baş naziri də qılıncdan keçirirdilər (73, 572; 128, 57). Mənbələrdəki məlumata görə hakimiyyət xatirinə on doqquz qardaşını bir gündə boğduran Osmanlı sultanları olmuşdur (78, 301; 53, 551).

Beləliklə, XVI əsrin əvvəllərində hər cəhətdən zəif olan Kürdüstanın qonşuluğunda qüvvətli Səfəvi dövlətindən başqa, Şimal-Qərb hissəsində qüdrətli monarxiya quruluşlu Osmanlı hökuməti də mövcud idi. Böyük imperiya yaratmaq niyyətində olan Osmanlı sultanlarının nəzər-diqqətini Kürdüstan çox cəlb edirdi. Çünki Kürdüstan sultan hökumətinin istilalarında iştirak edən zadəganları torpaqla təmin etməkdən başqa, Səfəvi dövlətinə qarşı maddi və mənəvi imkanlara da malik idi.

Əvvəldə qeyd etdiyimiz kimi, Kürdüstanda olan bu imkanlar onun qonşusu Səfəvi dövlətinin da nəzərini cəlb edirdi. Bundan başqa onlar Ermənistan və Gürcüstanı da işğal etmək niyyətində idilər. Osmanlı




hökuməti isə hətta Azərbaycana da göz tikmişdi. Çünki XVI əsrdə Kürdüstanın qoyunu, yunu və başqa məhsulları kimi, Azərbaycanın ipəyi və Şərq və Qərb bazarlarını zənginləşdirən xammallardan biri idi. Eyni zamanda Osmanlı hökuməti Şərq ilə Qərb arasındakı ticarət və hərbi yolların ağalığını öz əlinə almaq istəyirdi.

Beləliklə də, iki böyük dövlət arasındakı bu və ya digər rəqabət XVI əsrin əvvəllərindən etibarən Kürdüstanı təhlükəli bir vəziyyətə saldı. II Sultan Bayəzid Kürdüstan məsələsində əvvəlcə hiyləgər və yumşaq siyasət apardı. O, I Şah İsmayıl kimi kürd xalqına qarşı silah işlətmək siyasətindən vaz keçdi. Sünni məzhəbindən olan kürd tayfa başçılarını öz tərəfinə cəlb etmək üçün özünü islam aləminin yeganə varisi və sünni məzhəbinin müdafiəçisi kimi göstərdi.

Sultan hökuməti Kürdüstanı işğal etmək haqqında əsil məqsədini dini şüarlarla pərdələyərək, Səfəvilərdən narazı olan kürd tayfa başçılarından istifadə etmək qərarına gəldi «Münşaat səlatin» əsərində 1503-cü ildə Sultan Bayəzidin Cəməşgəzək əmiri Hacı Rüstəm bəyə göndərdiyi məktub, bu fikri bir daha təsdiq edir. Məktubda deyilir: «…Hacı bəy! Salam! Salamdan sonra padşah tərəfindən göndərilən bu naməni mütaliə edib biliniz ki, qızılbaşlar uzun müddət Bayandur dövlətinin başçıları ilə düşmənçiliyə başlayıb bizim yüksək məqamımıza təərrüz edirlər.

Bununla əlaqədar, o nahiyəyə yaxın olan sizin vilayətə Əlaqran Kiyvan və Cavusu göndərdik, bütün həqiqətlər Sizə məlumdur, bu məktub ilə sizi daha artıq xəbərdar edirəm ki, o tərəfin hadisələrindən nə bilsəniz onlara məlumat verin və bilin ki, Sizin bu əməliniz şahanə mərhəmətə səbəb olacaqdır» (98, 353).

Hacı Rüstəm bəy sultanın bu tələbi ilə razılaşmayıb 1509-cu ildə öz əmirliyini I Şah İsmayıl Səfəviyə təslim etdi. II Sultan Bayəzid kürd tayfa başçılarını Səfəvi dövləti əleyhinə təhrik etmək üçün Mövlana İdris Bidlisini əlverişli vasitə hesab etdi. Bu məqsədlə Mövlana İdris sultan sarayına dəvət edilib guya dövlətin tarixini (123; 53) yazmaq üçün «Vəq’enevis» (hadisə yazan) təyin oldu. Əslində isə o, Kürdüstana göndərildi və Osmanlı hökumətinin mənafeyi üçün ciddi işə başladı.

Beləliklə, Kürdüstan bir-birinə əks siyasət aparan iki dövlət başçısının dini təbliğat mərkəzi və soyuq müharibə meydanı oldu. Bu zaman II Sultan Bayəzid öldü. Onun kiçik oğlu I Sultan Səlim öz ordusunun köməyi ilə böyük qardaşlarını öldürüb hakimiyyətə keçdi (128, 57) (1512-1520). O, hakimiyyətinin ilk günlərində sarayda çox rəhmsizliklə öz xeyrinə dəyişiklik apardığına görə Yavuz ləqəbi aldı (128, 57).

**Ardı var**

# Göyçədə bir



*Slavik ƏHMƏDOV, 1993*

XX əsrin əvvəllərində dünyanın muxtəlif olkələrindən qaxtakan (muhacir) ermənilərin axınınadək olan dövürdə qərbi Azərbaycanın Göyçə gölü ətrafında 50- dək azərbaycanlı, bir neçə erməni kəndi və 10- dan çox kürd kəndi vardı.Kürd kəndlərindən bəzilərinin adları belə idi: Məlikli, Alçalı, Ördəkli, Adıyaman, Gunde Gole,Gözəldərə, Horguli, Cəmbərək.. Bu kəndlərdən ikisi Göysu və Kefli ( bəzən Kır da deyirdilər kürdcə daşlı,qayalı yamac deməkdir ) Göyçə mahalının Basarkeçər (indi Vardenis ) bölgəsində yerləşirdi. Əvvəlcədən deyək ki, bütün bu kürd kəndlərinin əhalisinin taleyi faciəli olmuşdur.

Bu yazıda yalnız Kefli kəndi və kürd sakinlərinin acı, keşməkeşli taleyindən söhbət açılır. Kefli kəndi Basarkeçərin cənub-şərqində, Basarkeçərdən Daşkənd kəndinə gedən 7 kmlik yolun sağ tərəfində, daşlı-qayalı Qırma və Seyiddağ dağlarının ətəyindəki düzənlikdə, Basarkeçərlə Daşkəndin arasında yerləşirdi. Kəndin qərbi dağlıq olduğundan heyvandarlıq və maldarlıq üçün əlverişli idi. Kəndin şərq tərəfi düzənlik idi.Yuxarıda haqqında danışılan yol və kiçik çay buradan keçirdi.Yolun sol tərəfi əkin sahələri idi. Düzənliyin yuxarısında kiçik dərə vardı. Bu dərəyə “Kürdlər dərəsi” (Nəwala kurda) deyilirdi. Dərənin sağında çox da hündür olmayan bir təpə vardı.Təpənin başı qəbiristanlıq idi. Aşağıda isə çayın üstündə su dəyirmanı vardı. Kəndin yuxarısında, dağlıq tərəfdə çökəkdə bir bulaq vardı. Bulağın axarı yox idi. Su çıxdığı yerdə qayalıqda batırdı. Bütün kənd içməli suyu buradan götürürdü. Kefli kəndi təxminən XİX əsrin ortalarından sonra, rus-türk müharibələri dövründə bina olunmuşdu. Burada yaz, yay aylarında Əyricə (Ağrıca) və Ağmağan yaylaqlarında yaylayan biruki (pirki ) kürdlər məskunlaşmışdı. Kənddə 70-dən çox ev vardı. Evlər qara bazalt daşdan tikilmişdi. Kənddə təxminən 300-350 sakini var idi.Əhali əsasən heyvandarlıq, maldarlıq və əkinçiliklə məşğul olurdu. Kənddə varlı, nüfuzlu adamlar olsa da, ağa, bəy yox idi. Kənd əhalisinin yaxınlıqdakı Daşkənd və Qoşabulaq kəndlərində yaşayan azərbaycanlılarla səmimi dostluq və qonşuluq münasibətləri vardı. Basarkeçər erməniləri ilə də münasibətlər pis deyildi.Təkcə dağın o üzündəki Qırxbulaq (sonralar Akunq ) kəndinin erməniləri tez-tez Keflinin geniş otlaq və yaylaq sahələrini otarır, zəbt edir, haqsız münaqişə törədir, sakit durmurdular. Kənd camaatı ermənilərin bu haqsızlıqları qarşısında müqavimət göstərir, geri çəkilmirdilər. Ara-sıra gərginləşən, toqquşma həddinə çatan bu münaqişə uzun illər davam etdi...

-Birinci Dünya müharibəsi illərində vəziyyət get-gedə pisləşir.Gərginlik 1918-ci ildə son həddə çatır.Başqa cəbhələrdə məğlubiyyətə uğrayan daşnak ordusu Göyçə gölü hövzəsinin Kəvər, Qaranlıq və Gözəldərə bölgələrinin dinc azərbaycanlı və kürd sakinlərini doğma yerlərdən qovub çıxarır, ələ keçənləri qılıncdan keçirirlər. Heç bir günahı olmayan minlərlə qoca, qadın və uşaq öldürülür. Daşnaklar ələ keçən uşaqların bir qismini Eçmiədzinə aparıb xaç suyuna salırlar...Göyçənin bu bölgəsinin doğma sakinləri elə o vaxtdan yurdlarından perik düşürlər.

Göyçənin Basarkeçər bölgəsində də ermənilər azərbaycanlılara və kürdlərə qarşı daha dözülməz fitnə-fəsadlar törətməyə başlayırlar. Belə ki, silahlı dəstələr düzəldir, yollarda pusqu qurur, kəndlərə basqınlar edirlər. Bütün bunlara daşnak Selkov başçılıq edir. Selkovun başçılığı ilə talanlar, qırğınlar son həddə çatır. Daşnaklar topları Seyiddağ yaylağındakı Qırmızıdağ yüksəkliyinə qoyub bütün kəndləri atəşə tuturlar. Aralarında Qaraimanlı Məşədi İsa, Şişqayalı Tanrıverdi, Daşkəndli Məşədi Qasım, Hacı Rəhim, Qoşabulaqlı Söyün və digərlərinin də olduğu azərbaycanlı və kürd ağsaqqallar Zodlu Səmənd ağanın evinə toplaşır, çıxış yolu axtarırlar. Ermənilərə sülh təklif olunur, lakin ermənilər buna məhəl qoymurlar. Belə olduqda tədbir görülür, qaniçən cəllad Selkov öldürülür. Lakin köməksizlik Göyçəliləri daşnak ordusu qarşısında çıxılmaz vəziyyətdə qoyur. Silah-sursat olmadığından itki çox olur. Hücuma ilk məruz qalan kəndlərdən biri də Kefli kəndi olur. Kürdlər kəndi tərk etməyə məcbur olurlar. Daşnaklar Kefli kürdlərindən də müxtəlif yerlərdə ələ keçən çoxlu adam öldürürlər. Şərif Nəbi oğlu və onun oğlu Əli, Sımo Davud Gözəldərə yaylağında, Əli Xalidin 14 nəfər ailə üzvü və qohumu Ağrıca (Əyricə ) yaylağında öldürülürlər. Səfər Hami, Oze Hacı, Əme Bıro Gədəbəydə Başkənd erməniləri tərəfindən qətlə yetirilir.Gəncədə bazarda qoyun satarkən Həsən Xəmo, Sımo Həsən və Əhməd Mıho Novruz ermənilər tərəfindən öldürülür, qoyunları talan kimi aparılır. Davud Xəmo, Sımo Xəmo və Teymur Sevo (Səfər ) Cəmbərəkdə başları kəsilərək qətlə yetirilirlər...(Bu, Kefli kürdlərindən öldürülənlərin yalnız bir qisminin dəqiqləşdirilmiş siyahısıdır.)

1918-ci ildə bütün Göyçə camaatı kimi Kefli kürdləri də doğma yurdlarını tərk edirlər.Onların bir qismi Göysu kürdləri ilə birlikdə Türkiyəyə gedirlər. Kürdlərin bir hissəsi isə bir vaxtlar yenidən doğma yurda qayıtmaq ümidi ilə Azərbaycana gəlirlər.Onların bir hissəsi Gədəbəydə,bir hissəsi Şəmkirin Zəyəm qəsəbəsində,bir hissəsi isə Yevlaxda sığınacaq tapır,min bir məhrumiyyətlərə düçar olurlar. Dörd il sərgərdan didərgin həyatı keçirdikdən sonra, nəhayət, 1922-ci ildə Göyçəlilərə doğma yurda qayıtmaq nəsib olur. Ancaq hamı qayıtmır. Kefli kəndinin kürdlərinin də çox az bir hissəsi, on iki ailə doğma kəndə qayıdır.Bunlar Abdulla Haminin, Həsən Səfərin, Lətif Məmmədin,Telli Məmmədin, Rza Davudun, İbrahim Səfərin, Xudeda Məhərrəmin, Pirverdi Məhərrəmin, Qasım Məhərrəmin, Bəkir Cəvonun, Qasım Nadirin və Bəkir Nadirin ailələri idi.

Kənddəki evlər, dəyirman, qəbiristanlıq dağıdılmışdı.Əhalini içməli su ilə təmin edən bulaq olan çuxur iri daşlarla,torpaqla doldurulmuşdu.Dağılmış kənd bu ailələrin əli ilə yenidən bərpa olunur, bütün ağrı-acılara baxmayaraq həyat öz axarına düşür. Ancaq bulağı bərpa etmək mümkün olmadığından içməli su problemi yaranır... Bolşeviklərlə dil tapıb hökumət idarələrinə soxulmuş daşnaklar yenə dinc durmur, minbir fitnə-fəsad törətməyə çalışırlar.Onlar Daşkənd azərbaycanlıları ilə kürdlər ararsına nifaq salmağa çalışırlar. Lakin dini, imanı, inamı bir bu iki qonşu kəndin arasına nifaq sala bilmirlər.Əsl məqsəd isə tamam başqa idi. Basarkeçərə və Qırxbulağa yaxınlıq, geniş torpaq sahələri, zəhmətkeş kürdlərin firavan həyatı daşnaklara rahatliq vermir. Əməllərinin baş tutmayacağını görən daşnaklar başqa bir hiyləyə əl atırlar. Onlar Qırxbulaq ermənilərini məişət zəminində kürdlərə qarşı ədavətə təhrik edirlər. Qırxbulaq erməniləri əvvəllər olduğu kimi, ancaq bu dəfə daha həyasızcasına gah otlaqları otarır, gah yaylaqları zəbt edir, mal-qara oğurlayır, gah da ayrılıqda davadalaş salır, silahla hədələyirlər. Amma nə Kefli əvvəlki Kefli idi, nə də Keflidəki kişilər.Hiylələri baş tutur. Növbəti münaqişədən sonra kənddən üç nəfər ağsaqqalı, Həsən Səfəri, Lətif Məmmədi və Rza Davudu həbs edib Kəvər həbsxanasına salır, gizlincə öldürməyi qərara alırlar. Bununla kürdləri qorxudub kənddən çıxarmaq istəyirlər.

Basarkeçər ermənilərindən kürdlərin mərdliyini, hünər və qeyrətini qiymətləndirən, humanistliyi, nüfuz və hörmətinə görə bölgədə sayılan Melikyan Qriş haqsızlığa dözməyib Kəvər milis rəisi Andoyan Mukel və müavini Nazaretyan Seponun yanına gedir,onlardan bu biabırçılığa son qoymağı,kürdləri azad etməyi tələb edir. Ancaq daşnaklar onun da qılığına girir, şərt qoyurlar ki, əgər Kefli camaatı Göyçənin istədikləri başqa bir yerinə köçməyə razı olsalar, həbs etdiklərini azad edərlər.Ayrı çarə görməyən Həsən Səfər, Lətif Məmməd və Rza Davud başqa yerə köçmək tələbi ilə



# kənd vardı



razılaşırlar... Kefli camaatının narahat günləri yenidən başlayır.Kəndin ağsaqqalları sərasər üç ay bütün Göyçəni gəzir,yeni yurd yeri axtarır, lakin heç yerdə duruş gətirməyib, kəndə qayıdırlar. Axı, doğma yurdu, minbir əziyyətlə tikdikləri ev-eşiyi, doğmaların qəbirlərini qoyub hara gedəydilər? Şikayətlərə isə məhəl qoyan yox idi. Deyildiyi kimi yaxınlıqdakı Qoşabulaq kəndinin əhalisi ilə Kefli camaatı arasında çox mehriban, səmimi dostluq və qonşuluq əlaqələri vardı.Üstəlik kənd Kefliyə yaxın idi, üç km ola, olmayaydı. Qoşabulağa köçüb oradan ev-eşiklərinə, qəbiristanlıqlarına sahib ola bilərdilər.Vaxt gələr,öz doğma kəndlərinə də qayıda bilərdilər. Çox götür-qoydan sonra bu ümidlə Qoşabulağa köçməyi qərara alırlar. Rəis və müavini də razılaşır.Arabalar gətirilir, köçlər yüklənir...1931-ci ildə kürdlər Qoşabulağa köçürülür. Onların bir hissəsi sonralar Qayabaşı kəndinə köçür.

1932-ci ildə tez-tələsik rayonun inzibati-ərazi bölgüsünə baxılır. Otlaqlar və yaylaqlar Qırxbulaq kəndinin, boş qalmış Kefli kəndi, əkin sahələri ilə birlikdə, Basarkeçər kəndinin ərazisi sayılır və kolxoz təşkil olunur.Kürdlərin öz doğma yerlərinə gedib- gəlmək, yaylağa çıxmaq, əkin sahələrindən istifadə etmək arzuları boşa çıxır. Yenə şikayət etsələr də bir nəticə hasil olmur... Kürdlər Qoşabulaqda azərbaycanlılarla birlikdə kolxoz quruculuğunun eybəcərliklərini,1937-ci ilin repressiyalarını,1941-45-ci illərin müharibə dəhşətlərini, 1944-cü ilin,1948-1953-cü illərin sürgün faciələrini,1960-1980-ci illərdə ermənilərin millətçilik paranoyasını yaşayırlar...1980-ci ildə Zaqafqaziya Hərbi Dairəsi Topoqrafiya idarəsindən rayon rəhbərliyinə Kefli kəndi ilə bağlı sorğu gəlir. Rayonun erməni rəhbərliyi belə bir kəndin olmadığı barədə cavab göndərir.Bundan narahat olub elə həmin il kənddə meliorasiya işlərinə başlanır, etirazlara baxmayaraq evlərin xarabalıqları yox edilir.Traktorçular qəbiristanlığı dağıtmaqdan imtina edirlər.1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin alovlanmağa başladığı günlərdə ermənilər əkin-səpin üçün yararsız olan, qəbiristanlıq olan kiçik təpəyə yenidən meliorasiya adı ilə traktorlar gətirdilər. Bu, əxlaqa, etikaya sığan iş deyildi. Kəndin keçmiş sakini , ağsaqqal Əhməd Lətif oğlu hadisə yerinə getdi və erməni vandallara bunun insanlığa sığmayan bir hərəkət olduğunu bildirdi.Traktorlar qəbiristanlıqda olsa da, bir müddət onların səsi gəlmədi. Noyabr ayında traktorların səsi yenidən eşidilməyə başladı. Qaçaqaç düşəndə ermənilər artıq qəbiristanlığı dağıtmışdılar. Onlar beləcə bir kəndi yox etdilər. Kefli kəndinin keçmiş sakini olan kürdlərdən həyatda qalanlar Türkiyə, Azərbaycan, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan kimi ölkələrə səpələndilər. Bir kəndlə birlikdə oradakı xalq,onun dili, adət-ənənəsi, həyat tərzi də məhv oldu.

## "YENİ MÜSAVAT"IN TƏHDİD OLUNMASI ARAŞDIRILIB

### *Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi təhqiqatın nəticəsi ilə bağlı redaksiyaya məktub göndərib*

"Yeni Müsavat" qəzetinin əməkdaşlarının naməlum şəxs tərəfindən ölümlə təhdid olunması ilə bağlı hüquq-mühafizə orqanlarına edilən müraciətə cavab verilib. Daxili İşlər Nazirliyi (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Mirqafar Seyidov dünən R.Arifoğluna məktub ünvanlayıb.

M.Seyidovun imzası ilə redaksiyaya daxil olan məktubda bunlar yazılıb: "Siz Azərbaycan Respublikası DİN-in rəhbərliyinə ünvanladığınız müraciətinizə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində baxılmışdır. Müraciətdə göstərilən xüsusatlar müvafiq qaydada araşdırılmış və redaksiyaya daxil olmuş zənglərlə bağlı qəzetinizin əməkdaşlarının real hədələnməsi öz təsdiqini tapmamışdır. Eyni zamanda bildiririk ki, bu istiqamətdə müvafiq tədbirlər həyata keçirməklə "Yeni Müsavat" qəzetinin redaksiyasının və əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı ərazi polis orqanına müvafiq tapşırıq verilmişdir".

Qeyd edək ki, ötən il oktyabrın 25-də "Yeni Müsavat" qəzetinin redaksiyasına təhqir və təhdid dolu zənglər edilib. Özünü gah "Ərdoğan", gah da "kürd oğlu" kimi təqdim edən naməlum şəxs qəzetdə dərc olunan "Ələ keçən terrorçu PKK-nın rəzil həyatını açıqladı" başlıqlı yazının müəllifi Nəsiminin və "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlunun ünvanına təhqiramiz ifadələr işlədərək onları ölümlə hədələmişdi.

Arayış üçün bildirək ki, yuxarıda başlığı göstərilən yazı əslində Türkiyədə çıxan "Milliyet" qəzetinin materialıdır və Anadolu türkcəsindən Azərbaycan şivəsinə uyğunlaşdırılıb. Bundan başqa, ələ keçən terrorçunun PKK barədə söylədikləri Türkiyədə fəaliyyət göstərən bütün elektron və çap media quruluşlarında yer alıb.

Həmin zənglərdən sonra "Yeni Müsavat"ın rəhbərliyi hüquq-mühafizə orqanlarına müraciət edərək qəzeti psixoloji terrora məruz qoyan şəxsin tezliklə tapılıb cəzalandırılmasını xahiş etmişdi. M.Seyidovun imzası ilə redaksiyaya göndərilmiş məktubda qeyd olunanlara münasibət bildirən "Yeni Müsavat"ın hüquqşünası Vaqif Hüseyn bildirdi ki, araşdırmanın onlar bu cavabdan və nəticədən razı qalmayıblar. Üstəlik, sözügedən araşdırmanın hansı metod və üsullarla aparılması da redaksiyaya bəlli deyil. O, qeyd etdi ki, "Yeni Müsavat"a qarşı bu cür təhdidlər davam etsə, yenə də hüquq-mühafizə orqanlarına müraciət ediləcək.

***bia.az***

## Türk-kürd klipi internetdə rekord qırır

*Türk-Kürd qardaşlıq klipi internetdə izlənmə rekordu qırır*

"Mərkəz"in Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, sözləri Şivan Pervərə, bəstəsi Sezen Aksuya məxsus olan və Hakan Vreskalanın Stokholm küçələrində yarı türkcə, yarı da kürdcə oxuduğu "Yaşasın xalqların eşqi" mahnısı internetdə izlənmə rekordu qırır.

## 130 adam PKK-ya kömək edib



Bazar ertəsi Türkiyənin təhlükəsizlik qüvvələrinin PKK ilə mübarizə ilə bağlı həyata keçirdiyi növbəti əməliyyat zamanı ölkənin müxtəlif şəhərlərində bir sıra hücumlarda əli olmaqda və PKK-ya kömək etməkdə şübhəli bilinən 130-a yaxın şəxs saxlanılıb. bu barədə "TRT Haber" telekanalı məlumat verib.

Bundan əvvəl İstanbulda 10 və Qaziantep şəhərində 10 nəfərin saxlandığı barədə məlumat verilmişdi.

PKK silahlıları sistemli şəkildə həm dinc əhaliyə, həm də ölkənin təhlükəsizlik qüvvələrinə qarşı hücumlar təşkil edir.

Türkiyə ilə PKK arasında münaqişə 25 ildən artıqdır davam edir. Bu münaqişə 40 mindən artıq insanın həyatına son qoyub. PKK BMT, eləcə də Ankaranın tamhüquqlu üzv kimi daxil olmağa çalışdığı Aİ tərəfindən PKK təşkilatı kimi tanınıb.

Bundan əvvəl PKK yaraqlıları Türkiyə hakimiyyətini çoxillik kürd probleminin həlli ilə bağlı konkret addımlar atılmayacağı təqdirdə silahlı qarşıdurmaların artacağı ilə hədələyib.

# Hemik û Sînem



Qadir Qaçax

**Destpêk li hejmarên bihurî**

Dildînemuwahemî leşî ye
Vîndarîdînemuwadilî ye
Eve gotina bîrmendekî ye
Pîratî ji bêevîndarî ye
Yêbêvîndarîpîr û mirî ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Dîrokê şerm û tirstêdanîne
L' dabêşêtjînê herdemjenîne
Reş û spiyatî jêk d' vavêrtîne
Zordar b'serşorî d'hilawîstîne
Vîndarêt dirust l'serê kumtîne
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê
Hemik ûSînemşalwîlûmêlaq
Her l'wê roja boêkdîbîn meraq
Neşiyanjêk biken çi dîwar û taq
L' jin ûmêra d'bin berdan û fîraq
Lêbo vîndara qet nînetelaq
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Çekçekîledostê tarriyatyê ye
Herdemevîndarê şevreşê ye
Xwarina wî j' leşêbelatînkê ye
Belatînkeveguneha wê ye
Çinku derwêşaronahiyê ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J' layê olîveyab'tirscehneme
Boeşîretyê şerm yaherdeme
Du çekinmirovyêb' kulûxeme
Rêberêt herdukaherêk mereme
Reş dirwîşmê wan tirse yan şerme
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Bidirustahî ewe mîrdarî
Hilgirt barê xemêthejarî
Xelk pê razî bitdwîrî zordarî
B'taybetî texa pale û cotyarî
Dê parastî bitdesthelatdarî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Her kesê encamdetefrandinê
Tête dar û ber barankirinê
Peyva wî xelkîd'detêşandinê
L' mejyê berteng dikit givaştinê
Dê b' dîn û kafirdinhijmartinê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

D' başqenerondikêtpêkenînê
D'gelyêt dwîratîû cudayîûvînê
D'gel yêt hejaryêûxemûnalînê
D'gel yêt tîmsahyê û yêt kerb û kînê

J' layêswîratîûgermûsarbînê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Yêt bê efrandin û behredar
Xudan gotinêt bê wicûkiryar
B' hunerî û toreynebine hişyar
Razî binheçya lêbiketzordar
Namînin mirovd'binegiyandar
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mîryadiktator tepeserkere

Heyif bîrûbawerhobênfirotin
Gund her bi destêgundîbêtsotin
Pez jibodagîrkera bêtdotin
Rez ûdar berrwî bêneverotin
Helbest û stiran b' dujmin bên gotin
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Zehmet û dem d'vêt b'kirnaavedan
B' sanahî û b'lezejînkirinewêran
Evrazîpişkakesêtqehreman
Nişîvîbokulafêt bêşiyan
B'saxîd'mirîne mîrêt bê wijdan

Peşêmanî lê şermizarî ye
Qurbanînexşê li serberî ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Selma viyaCizîryê gula Îrem
Lasuy viya XezaL yapirr kul û xem
NalîHebîba wir bo bî merem
Şahînî derdêdilêwî Mêrem
Tu jî qurbanê yad'gotî Sînem
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Kesê hunermend yan nivêsere
L' berpisyarya wî herdem ya fere
D'gel zordaryêbiketinşere
Çekê l'nav destîtoreû hunere
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Yêd' navzibildanê daQubad beg
Mîrekzordar ûnezanû debeng
Çû nav guldanê Hemkê b'navûdeng
Egîdêvînêsûyarê pir çeleng
Ya l'ber singê wîSînema qeşeng
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Evgotinêt mingunehbarkirin
J' neçarî berev çiyabar kirin
Çinku dît yê b' wan awazad'xurrin
Yêt hejar pêbêne hişyarkirin
Textêzordaryê pê bêtj' navbirin
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mirovhelwîste ne zêrû zîve
Kesekîb'çava bilind nepîve
Çinkuhindekkurt yê birexwîve
L' erdî ya ji te ve ewir bi esmanîve
Di firokêdaewirbi erdîve
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Paşve mane û dumahyênemane
Eve maka tev derdûbelane
Nezanbin karbidestêt rojane
Nezaninjî kuned' zanane
Ya d'zanin jî j'bo berwîka wane
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Yê rojekê jî bodujminî cehş
Jiserferazyêbê pişkûbêbeş
Ger xudan dîrokekpaqijûgeş
Digel serokcaşî bibîtehevbeş
D' zibildanê da wekwî d'bit rwîreş
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Azadîl'kumtîlievraziyê
B'gehiştnêpêtvîbiqurbanyê
B' saxî ûmirinêb'serbilindiyê
Belê pa berwîk ya l' nizmahiyê
Yê viyarazîyeb'serşoriyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Digelmîrûmara wek êke jiyan
Herdem amade tu bêy pêvedan
Ev renge mirov d'gel mîra b' peyman
Yê rewişt nizmûbikitmedhêtwan
B'her tiştî razîûyêholûnezan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Evînîderdê serhemîderda
Tuxîb bezênaesmanû erda
Hewa viya Ademî biheşt ji dest da
EdwardîValîssahatî lider da
Sen'anî Sertemgirtûolberda
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Hemyan êk Xudê û gelek pêxember
HinartyêtXudêb' ola d'gelêkşer
Olekûayînzayêt terawber
Ayînzayekû peristgeh d' veder
Mirov ma çewa j' navêk b'biteder
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L'dwîvoldariyapeyamaesman
EgerXudayîhebaye viyan
Evroda yabêdabêşbit cîhan
Êk oldarî ûl'rêza êkjiyan
Reng jêk ne cuda û nêr û mê yeksan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Zebûr û Tewrat, IncîLû Qur'an
D'bêjin Xudayê pirrî dilovan
Hene hemî jêhatin û şiyan
Ma boçî mirov tev wesa nedan
Êk texe û saxlem zana û ciwan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Tiştêqedexepirrmereqdare
Rêgirtinawê zora dijware
Metirsiya wê herdem yahare

Çara wênab'tetirsyanûpare
B' yasay rêdan û têr bîn d'bit çare
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J' layekê heyifûpirraxûkovan
Ji layekdî xinêkêt hêma viyan
Yêt wek Hesemî û şengeLe'ilîxan
Hemk ûSînema gulvîna ciwan
Belkî b'jîn j' ber wan Qeçax û Beyan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Eşîretî ûoldarî durêkin
Kotekîûfêlherdûcêmikin
Dîwanxane û peristgeh berpêkin
Tifûmaçkirin l'dumahyê êkin
Serekanyeke avawan jêkin
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Eve nimûneû serpêhatî ye
Ger te dît vîn li serêkumtî ye
Tirsiyan û şermhîngê mirî ye

Sînem bo Hemkê hêvên hozane
Herdem selîqe ûawaz pîvane
Baştirîn peyv û bendestirane
Gulekatijî hezû viyane
Dilê Hemikîbowêdermane
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Dujminherl'demêşîrû metala
Pêkol kiriye ji tev rexûala
Kurd b'mînin ji kerr ûkore ûlala
Bêjeû binvîse ax û nalnala
Bila guhdar bêt l'paş sê sed sala
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

D'bêjinKurda qetnebiye şaristan
Sehkin muzexanêt talankeran
L' Bexda û Dîmeşq û Enqere û Tehran
L' Parîs û Lenden l' Musko û Waşintan
Hîngê dê zanincîyeKurdistan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Dagîrkeraol b'xokiremetal
Dal'netewawannevemrît şemal
Kurd xudanmelaûqeşeûqewal
Olkirearmanc neteweşekal
Lewa Kurd her man dardest û gopal
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Wulatêmineb'navêKurdistan
B' jîngehê zengîn me'iden bê pawan
J' dardestyaKurda mayebê kiyan
Herwekkiçekaşirîn û ciwan
Cihêtemayayêt xudan şiyan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Şevekê Hemik te hebîjivan
D'gelSînema xoştivî û ciwan
Spêdê diyar bî l'we herduwa nîşan
Liser dêmêwêtomarbî viyan
Liser dêmê te hat kolangiyan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L'ser demê Mîdya Kurd bûn berahî
Jiwêrê hêrvetir berev dumahî
Xo d'kin piledu zorbisanahî
D'got Kerîmxanê zendtupêşahî
Wîd'gotbêjinemincêgirêşahî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

**Dûmahî heye**

www.netewe.com

# DÖYÜNƏN ÜRƏYİMİZ

*(Əziz və sevimli Əmirxan müəllimin 70 illik yubileyinə ithaf edirəm)*

Tutub əlimizdən,
körpə çağında,
Nur çilədin,
yolumuza.
Neçə-neçə ziyalını,
alimi siz,
ərəni siz.
Bəxş etdiniz,
obamıza, elimizə.
Parçalayıb cahilliyi,
rəzaləti, cəhaləti.
Sən öyrətdin məhəbbəti,
mətanəti, sədaqəti.
Bir dühasan,
qəlbimizdə,
izin var.
Bir dünyasan.
Dünyamıza,
nur çiləyən sözün var.
Bir ürəksən,
sinəmizdə,
hər vaxt, hər an
döyünür.
Elim, obam,
qüdrətinlə,
şöhrətinlə öyünür.
Adınızın qarşısında,
baş əyirik,
diz çökürük.
Yumruq kimi birləşirik.
Adı sizə zaman verdi,
Yaman verdi!
Sən sözünün əmirisən,
sən sözününxanı oldun.
Xırdaladım mən bu adı;-
əmir oldu,
xan qaldı.
Birləşəndə daha böyük,
Dahi Əmirxan alındı.
Adınızın qarşısında,
mat qalmışam,
lal olmuşam.
Onu sizə zaman verib,
yaman verib.
Hardan bilib,
əmirsiniz,
Hardan bilib,
xansınız.
Müəllimlər içində,
müəllim sultansınız...
Bəzən qorxub zəhmindən,
itirmişik özümüzü.
Titrəmişik,
əsə-əsə,
həyəcandan,
deməmişik dərsimizi.
Nadinc olub,
qəlbinizə toxunmuşuq,
bilməmişik səhvimizi.
Böyüdükcə,
baş vurmuşuq,
dünyanıza,
Anlamışıq hökmünüzü.
Anlamışıq səhvimizi,
eyləmişik kəşfimizi.
Uşaqlığın,
şıltaqlığı,
çılğınlığı,
yorub sizi.
Təbəssümlə gülmüsünüz.
Zərif, körpə telimizi,
həm silləyə,
həm sığala,
bölmüsünüz.
Gecə, gündüz çalışardıq,
bəzən qorxub alışardıq,
göynəyərdik bir üç üçün.
Sizdən qiymət,
almaq üçün.
Aldığımız,
əyricə üç,
Neçə-neçə, özgə beşə,
tay olardı.
Lovğalanıb, dik gəzərdik,
uşaqların arasında.
Özümüzü sanardıq biz,
əlaçılar sırasında.
Üç almışıq,
bu gün sizdən.
Beş almışıq ömrümüzdən.
Sevinmisiz körpə kimi,
aldığımız beşimizə.
Neçə-neçə,
duyğu qonub,
sevgi qonub döşünüzə.
Dalıb, dərin xəyallara.
Qaşlarınız çatılanda,
qayğımızı çəkmisiniz.
Səhvimizi heca-heca.
ilmə-ilmə
düzəldərək,
beynimizə, qəlbimizə,
əkmisiniz.
Yamanca darıxmışıq,
yığışıb oturaydıq,
yenə də,
dərsinizdə.
O nidanı,
vurğunu,
duyaydıq səsinizdə.
Çözələnib xəyallar,
o çağlara gedəydi.
Nə olardı, Allahım,
möcüzə baş verəydi.
Şax duraydıq qarşında,
dərsi danışmaq üçün.
Oxuyaydıq, yazaydıq,
yenə,
yarışmaq üçün.
Vuraydıq qoltuğumuza,
qələm, dəftər, kitabı.
Yarıb çovğunu, qarı,
gələydik gecə sizə.
Yenə də öyrədəydin,
o dərsi təkrar bizə.
Tarix sizi bəxş elədi,
əsrimizin 20-sinə.
Tanrı özü dayaq durdu,
haqq işinə, haqq səsinə.
Yaratdı ki, zaman sizi,
sevindirə bəxtimizi.
Qızıl hərflərlə yazdın,
min doqquz yüz yetmiş beşi,
əsrimizə.
Örnək oldun, ata oldun,
böyümüzə,
körpəmizə, hər birimizə.
75-di dühanızın ilk nübarı,
qaranquşu.
Saxlamağı bacarmırdıq,
sən öyrətdin,
saxlamağı,
əlimizdə karandaşı.
Sən öyrətdin,
əziz müəllim,
sən öyrətdin,
insanlığa sevgimizi!
Sən öyrətdin ayırmağa,
beşimizi-ikimizi.
Sən öyrətdin bu dünyada,
düzgün bilək,
yerimizi,
yükümüzü, çəkimizi.
Bir möhtəşəm qala qurdun,
hörgüsü biz,
zərrəsi biz.
Sahilsiz bir ümmansan ki,
damlası biz,
qətrəsi biz.
Sən parlayan bir günəşsən,
ayəsi nur,
ziyası nur,
qayəsi nur.
Sən cəzb edən bir məkansan,
dövrəsi nur,
sahəsi nur...
Saçlarının bəyaz rəngi,
Saflığının,
paklığının ,
məcmuəsi.
Ucalığın,
qocalığın, təntənəsi,
Əbədiyyat nəğmə səsi.
Ey qəlbimin xridarı,
Söz gövhəri, vəfadarı.
El obamın, sultanı, xanı,
şöhrət, şanı.
Qoy ömrün açsın çiçək,
Biz də baxıb, sevinək.
Bu ad günün, mübarək!
70 yaşın, mübarək!
70 yaşın, mübarək!

***Vidadi Qurbanov***
*20.04.2006*

# AZƏRBAYCANDA KÜRD "PROBLEMİ"

Mən uşaqlıqdan Kürd deyilən camaatın içərisində böyümüşəm. Özüm də tarixçiyəm. Həmişə kürd xalqında sədaqət, etibar, mərdlik, qeyrət görmüşəm. Kürd xalqı Azərbaycanın ən qədim etnoslarından biridir. Sonralarda Azərbaycana az miqdarda Kürd gəlmişdir. Bəli kürd xalqı çoxdan Azərbaycan ərazisində yaşadıqlarına görə qaynayıb qarışaraq doğmalaşıblar.

Kürd xalqı Azərbaycanada əsrlər boyu qeyrət, quvvət timsalı olan dağ cüssəli bir etnos kimi tanınmışlar. Heç təsadüfi deyildir ki, başımızın üstünü qara təhlükə alanda ümumvətən mənafei yolunda mən, kürd gəncləri ilə digər gənclər arasında heç bir fərq görməmişəm. Qondarma "Dağlıq Qarabağ" problemi ortaya atıldıqda kürdlər doğma Azərbaycana bağlı olduqlarını pak əməlləri ilə sübuta yetirdilər. Onlar erməni qəsbkarlarının fitnəkar təbliğatlarına aldanmadılar. Düşmənin yalançı vədlərini nifrətlə qarşıladılar. Bir nəfərdə olsun kürd dönük çıxmadı. Qaynayıb qarışdıqları Azərbaycan xalqına sadiq olduqlarını bir daha numaiş etdirdilər. Həqiqət belə olduğu halda bəzi qəzetlərdə "Kürd" problemindən söhbət açılmasını mən düşmənçilikdən başqa bir şey hesab etmirəm.



Azərbaycan Elimlər Aketdemiyasının tarix inistutunda, mənim rəhbərlik etdiyim şöbədə "kürdlərin" etnoqrafyasına dair tədqiqat işləri aparılır. Əlbətdə bu gərəkli və vacibdir. Qardaşlaşdığımız və doğmalaşdığımız kürdlərin tarixini, ədəbiyyatını, folklorunu, mədəniyyətini öyrənmək lazımdı. Uzun dövr ərzində kürdlərin Azərbaycanın içərisində yaşaması hər iki xalqın bir çox adətlərini, mərasimlərini, bir sözlə etnoqrafyasını biri-birinə sıx yaxınlaşdırmış və eyniləşdirmişdir.

Məlum olduğu kimi dünyada on milyonlarla kürd yaşayır. Biz çalışmalıyıq ki, dünya kürdlərini Azərbaycana rəğbətini gündən-günə artıraq. Biri-birimizin tarixini ədəbiyyatını öyrənək. Bu nöqteyi-nəzərdən Respubilikada yaradılan Kürd Mədəniyyət Mərkəzinin fəaliyyətini də artırmaq lazımdır. Bəziləri qəzet səhifələrində hec bir sənədə, subta əsaslanmayıb məsələn, Hacı Samlı, Gəlovçu, Təhməzli və başqa tayfaların mənşəinin kürd olmadığını idda edirlər. Bu belə deyil.Çoxlu elmi mənbələr sübut edir ki, həmin tayfaların kökü kürd olub. Lakin Azərbaycanda çoxdan yaşadıqlarına görə tədricən qanunauyğun olaraq dillərini unudub Azərbaycanlılara qaynayıb qarışıblar. Yaxşı olar ki, qəzetlər həqiqəti bilmədən yanlış yazılar çap etməsinlər. Çün ki həmin mənbələr düşmənlərin də əlində var və bəhanə axarırlar ki, bizim əlehimizə təbilğat aparsınlar. Biz isə bunu düşməndən məkirli düşmənin dilinə söz atırıq. Belə məsələlərdə ehtiyatlı olmaq lazımdır.

Tarixin səhifələrini vərəqlədikdə bəzi xırda hadisələri nəzərə almasaq yəqin edərik ki, Azərbaycanlılarla Kürdlər böyük Kürd şairi Həjarın dediyi kimi düşmənə qarşı bir qılıncın iki aüzü, eyni bir dağın o üz, bu üzü olublar. Biz bu hikmətli sözlərin həyatda qoruyucusu olmalıyıq. Xalqlar arasına nifaq salmaq istəyənlərlə barışmamalıyıq. Mərhum, görkəmli tənqidçi alim Qulu Xəlilli çox doğru olaraq yazmışdı ki, Kürdlərlə tarix boyu "Çörəyimiz bir, suyumuz bir" olmuşdur. Alimin bu kəlamının da keşiyində durmalıyıq.

Kürdlərə qara yaxmağa cəhd edənlər bir daha təkrar edirəm, Azərbaycanda "Kürd problemi" yaratmaq üçün ortaya nifaq toxumu səpmək istəyənlər yanılırlar. Kürdlərin qeyrətinə və mərdliyinə ürəkdən inandığıma görə tam əminəm ki, hec bir nifaq toxumu onların bostanına düşə bilməz. Kürdlər hec vaxt qaynayıb qarışdıqları Azərbaycandan özünü kənarda hesab etməz. Azərbaycanda Qondarma "Kürd problemi" yaradılmasına onların özləri imkan verməz. Buna görə də, ətlə dırnaq arasına girmək istəyən "Hüriyyət" qəzetinin müxbiri Ənvər Börüsoy və tutuquşu kimi Börüsoyun yazısını oğurlayaraq öz adlarına verən "Gündəm xəbər", "Dia.az" və başqa qəzetlərinin müxbirləri kimi araqarışdıran məğara tikanları mütləq kənarda qalıb çürüyəcəkdir.

***RƏŞİD GÖYÜŞOV,***
***TARİX ELİMLƏRİ DOKTORU,***
***PROFESSOR***

## 'Kurd referanduma Sûriyê boykot dikin'

*Referendum li ser destûra nû li Sûriyê di 26ê mehê de tê kirin*




Serokê Sûriyê Beşar Esed roja 26ê vê mehê destnîşan kir wek dema dengdana li ser projeya destûra nû li Sûriyê. Wezîrê derve yê Rûsyayê Serge Lavrov pêşwazî li vê pêngava Esed kir, lê Civata Niştimanî ya Sûriyê ew wek hewldanekê bo veşartina tawanên ku rêjîma Esed li dijî mirovatiyê dike, dît. Endamê Polîtboruya Partiya Demokrata Kurd li Sûriyê ji Rûdawê re got: "Bi ti awayî ew destûr ne di berjewendiya gelê Kurd de ye û wê Kurd baykot bikin." Ajansa fermî ya hikûmeta Sûriyê SANA ragihand: "Serok Esed biryarek derxist û tê de roja yekşemê 26ê vê mehê diyar kir wek dema çêkirina referendumê li ser projeya destûra nû li Sûriyê." Esed roja yekşema borî ji aliyê komîteya amadekirina projeya destûrê kopiyek ji projeyê wergirtibû, bi mebesta xwendina projeyê û veguhastina wê bo Meclîsa Gel, berî ku referendum li ser bê kirin. Serokê Sûriyê Beşar Esed li pêşiya endamên komîteyê got: "Dema ku destûra nû bê çespandin, êdî Sûriyê gava herî girîng diavêje, yanî danîna bingeha yasayî û destûrî ya welêt, bi mebesta guhastina Sûriyê bo qonaxeke nû bi hevkariya tevahiya pêkhateyên gelê Sûriyeyê." Naveroka benda 8 ji destûra kevin hat rakirin, ku digot: "Partiya Bees a erebî sosyalîst, partiya serkirde ye di dewlet û civakê de." Di dewsa wê de jî ev made hatiye pêşniyarkirin: "Rêjîma siyasî ya dewletê li ser bingeha pirbûna siyasî ava dibe, û bikaranîna desthilatê bi awayekî demokratîk tê kirin bi riya dengdanê. Partiyên siyasî yên moletkirî û kombûnên hilbijartî beşdariyê di jiyana siyasî ya niştimanî de dikin." Projeya destûra nû diyar dike ku divê serokê dewletê "rasterast ji aliyê gel bê hilbijartin" bo dema 7 salan ku tenê carekê dikare bê dirêjkirin. Derbarê ola dewletê jî de, destûra nû dibêje ku Îslam ola serokê komarê ye. Herwiha destûra nû temenê berbijêrên serokatiyê kir 40 sal, piştî ku di sala 2000an de piştî mirina bavê Beşar, Hafiz Esed; bûbû kêmî 40 salan da ku Beşar Esed ku wê demê 34 salî bû, bikare bibe serok. Wezîrê derve yê Rûsyayê Serge Lavrov ragihand: "Ev raman`destûra nû` cihê pêşwazîlêkirinê ye û em hêvî dikin ev destûr bê çespandin. Bi baweriya me destûreke nû ku sînorekî ji serdestiya partiyeke siyasî ya tenê li Sûriyê `Bees` datîne, bêguman gaveke ber bi pêş." Lê Amerîka ev pêşniyara Esed red kir û got ku êdî dem pir dereng bûye û got ku: "Projeya destûra nû ya ku Esed bo referandumê di 26ê vê mehê de pêşkêş kiriye cihê pêkenînê ye." Endamê Civata Niştimanî ya Sûriyê Enes Ebde ji BBC re ragihand: "Em daxwaz dikin gel ve referandumê boykot bike, li gor ezmûna me bi vê rêjîmê re, rêjîm qet sozên xwe bicih nake. Rêjîma Esed ne di warê siyasî û ne jî di yê edebî de nikare destûreke rastî pêşkêşî gelê Sûriyê bike." Ebde bi tundî ev destûr û referendum red kir û wiha axaftina xwe qedand: "Pirsgirêka serekî ne destûr e, lê serdestiya tevahî ya artêş û hêzên ewlekariyê ye li ser dewletê. Heya ev rêjîm li ser desthilatê be, guherîn tenê wê çend peyvên kelevajî û sozên vala be."

**Kurd baykot dikin**

Endamê Polîtboruya Partiya Demokrata Kurd li Sûriyê û nûnerê wê yê li Herêma Kurdistanê Mehmûd Ebusabir Mihemed ji Rûdawê re diyar kir ku destûra ku biryare 26'ê mehê bikeve referandûmê; "Bi ti awayî ne di berjewendiya gelê Kurd de ye. Dûbare Baasî bi awayê berê rewatiyê bidin deshilatdariya xwe."

